Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

ICMPD
International Centre for Migration Policy Development

MOBILAZE
Azərbaycan və Avropa İttifaqı vətəndaşlarını bir-birinə daha yaxın edək

# Azərbaycan üçün diasporla iş üzrə ən qabaqcil təcrübələr

2024

# Azərbaycan üçün diasporla iş üzrə ən qabaqcil təcrübələr

2024

**Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz (MSİBM)**
Rothschildplatz 4,
A-1020 Vyana
www.icmpd.org

**Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz**
Avstriya Respublikası, Vyana şəhəri
2024-cü il

Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəzin Azərbaycandakı Nümayəndəliyi
Azərbaycan Respublikası, Bakı şəhəri,
Səməd Vurğun küç. 43, World Business Centre
2024-cü il

Müəlliflər: Melisa Siqel, Culia Mori

Bütün hüquqlar qorunur. Müəllif hüquqları sahiblərinin icazəsi olmadan bu nəşrin heç bir hissəsi hər hansı elektron və ya mexaniki formada və ya vasitə ilə, o cümlədən fotokopiya, səsyazma və ya istənilən məlumat saxlama və axtarış sistemi ilə təkrarlana, çoxaldıla, yaxud da ötürülə bilməz.

Bu sənəd Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanıb. Bu nəşrin məzmunu yalnız MSİBM-in məsuliyyət sahəsinə aiddir və Avropa İttifaqının fikirlərini mütləq şəkildə əks etdirmir.

# Mündəricat


**Giriş** 7

**1. İqtisadi fəaliyyət üzrə ən qabaqcıl təcrübələr** 11

1.1 Pul köçürmələri 11

A. Liberal pul köçürmə rejimləri 11

B. Pul köçürmə infrastrukturunun gücləndirilməsi 12

C. Pul köçürmələrinin daha məhsuldar investisiyası üçün imkanların yaradılması 13

1.2 Birbaşa investisiyalar 13

A. İnformasiyaya çıxışın təmin olunması 14

B. Şəbəkələrə və təlimlərə çıxışın təmin olunması 14

C. Sahibkarların maliyyə vəsaitlərinə çıxışını asanlaşdırma 15

1.3 Kapital bazarına investisiya 15

**2. Diasporla sosial fəaliyyət üzrə ən qabaqcıl təcrübələr** 23

2.1 Bilik və bacarıqların ötürülməsi 23

2.2 Xeyriyyəçilik 25

**3. Diasporla iş üzrə institusional təşkilatlara dair ən qabaqcıl təcrübələr** 30

**4. Böhran dövründə diasporla iş** 40

4.1 Böhrandan əvvəl 41

4.2 Böhran zamanı 42

**5. Nəticələr** 49

**Ədəbiyyat** 51

# Giriş

Bu sənəd ölkə diasporu ilə daha yaxşı işləməsi üçün Azərbaycan Hökumətinə məsləhətlər vermək məqsədi daşıyır. O, ümumi şəkildə, eləcə də seçilmiş ölkələrdə diasporla iş üzrə qabaqcıl təcrübələri ehtiva edir. Əlavə olaraq, bu sənəd COVİD-19 pandemiyasından sonra əldə olunmuş təcrübəni özündə əks etdirir və böhran dövründə diaspor üzvlərinə verilə biləcək dəstək növlərini təqdim edir.

“Diaspor” anlayışı çoxşaxəlidir və klassik mənbələrdən başlayaraq elmi, institusional və milli kontekstlərdə geniş yayılmış müasir konsepsiyalara qədər fərqli ədəbiyyatlarda müxtəlif tərifləri nəzərdə tutur. Yunan dilindəki “diaspeiro” (dia = arasında, vasitəsilə; speiro = səpmək, yaymaq) söz birləşməsindən yaranan “diaspor” termini əvvəlcə tarixi yayılmaları, xüsusilə yəhudi, yunan və erməni əhalisinin yayılma təcrübələrini təsvir edirdi. Onun müasir mənası yalnız yayılma prosesini deyil, həm də bu proses nəticəsində formalaşan icmanı və yayılmış əhalinin yaşadığı məkanı ifadə edir (Vertovec, 2009). “Diaspor”un mövcud tərifləri mədəni, dil və milli əlaqələr və ya miqrasiya etmiş əhali ilə onun mənşə yeri arasında təsəvvür edilən bağlılıq kimi amilləri vurğulayır (Marienstras, 1989; Sheffer, 2003; Vertovec, 2009). Beləliklə, diaspor ümumi identikliyin, tarixi əlaqələrin və vətənlə bağlı istər real, istərsə də xəyali kollektiv narahatlığın birləşməsini təcəssüm etdirir (Cohen və Kennedy, 2013).

Bu terminin institusional tərifləri Dünya Bankının xaricdə doğulmuş sonrakı nəsilləri istisna edən “xaricdə anadan olmuş əhali” konsepsiyasından başlayaraq, Afrika İttifaqındakı kimi qitənin inkişafına töhfə vermək istəyən Afrika mənşəli şəxsləri əhatə edən daha inklüziv təriflərə qədər dəyişir (Afrika İttifaqı, 2005). Şotlandiya Hökumətinin “əlaqədar diaspor” konsepsiyası, hətta milli mənsubiyyətindən asılı olmayaraq, müvafiq milli dövlətə xüsusi bağlılığı olanları da tanıyır (Ancien və digərləri, 2009).

Ümumiyyətlə, bir ölkə daxilində siyasət məqsədləri üçün diasporun tərifi müvafiq siyasətlərin hədəflədiyi konkret demoqrafik qrupdan asılıdır. Bu baxımdan Azərbaycanda diasporun tərifi xaricdə yaşayan Azərbaycan icmasının ayrı-ayrı seqmentlərini əhatə edən siyasətlərin formalaşdırılması üçün olduqca vacibdir. Azərbaycan diasporu müxtəlif qruplardan ibarətdir: Azərbaycanda doğularaq xaricə köçmüş şəxslərdən və onların xaricdə yaşayan nəsillərindən, habelə digər ölkələrdəki azərbaycanlı azlıqlardan. Azərbaycan Respublikası qanunvericiliyində göstərildiyi kimi, hüquqi tərifə Azərbaycan vətəndaşları və onların ölkədən kənarda yaşayan övladları, xaricdəki uşaqları ilə birlikdə yaşayan Azərbaycan SSR və ya Azərbaycan Respublikasının keçmiş vətəndaşları və etnik, dil, mədəni və ya tarixi əlaqələrə əsasən özünü Azərbaycanla eyniləşdirən şəxslər daxildir ("Azərbaycan" rəsmi saytı, tarix göstərilməyib). Diaspor daxilində bu cür müxtəlif komponentlərin tanınması diasporların Azərbaycanla münasibətləri, mədəni əlaqələri və yaşadığı ölkələrdə müxtəlif inteqrasiya təcrübələri kimi amilləri nəzərə alaraq, unikal ehtiyaclarını qarşılamaq üçün xüsusi siyasətlər tələb edir. Diasporun müxtəlif təbəqələri üçün fərqli siyasətlərin qəbul olunması və inkişafı bütün dünyaya səpələnmiş bu cür icmaları effektiv şəkildə cəlb etmək və dəstəkləmək üçün vacibdir.

Diasporun cəlb oluna biləcəyi sahələri başa düşmək effektiv siyasətin hazırlanması baxımından vacibdir. Diasporla effektiv iş ilk növbədə üç əsas sahəni əhatə edir: ev təsərrüfatı və (və ya) daha geniş ailə sahəsi; məlum icma sahəsi və təsəvvür edilən icma sahəsi. Bu sahələr ailə qrupları daxilində yaxın, şəxsi münasibətlərdən başlayaraq tanış sosial dairələr daxilində qarşılıqlı əlaqələrə və kollektivdəki daha geniş əlaqələrə qədər uzanan qarşılıqlı əlaqələr spektrini əhatə edir. Ev təsərrüfatı və daha geniş ailə mədəni ənənələrin, dilin və qohumluq əlaqələrinin qorunub-saxlandığı özəl və şəxsi sahəni təmsil edir. Məlum icma iqtisadi və sosial fəallığa birbaşa təsir edən sosial dairələr və qurulmuş şəbəkələr daxilində qarşılıqlı əlaqələri nəzərdə tutur. Nəhayət, təsəvvür edilən icma daha geniş, kollektiv məqsədi ifadə edir ki, burada da ortaq identiklik və mədəni irs mədəni, sosial və iqtisadi əlaqələrə təsir edərək səpələnmiş əhalini birləşdirir (Van Hear və Cohen, 2017). Odur ki, bütün sahələr üzrə çoxşaxəli fəaliyyət diaspor daxilində iqtisadi, sosial və mədəni əlaqələrə təsir göstərə bilər.

Öz ölkəsinin inkişafına töhfə verə biləcəyi sahələri başa düşmək diasporun potensialından səmərəli istifadə etmək üçün də vacibdir. Belə sahələrə iqtisadi pul köçürmələri və investisiyalar, sosial və mədəni töhfələr, turizm, xeyriyyəçilik və biliklərin ötürülməsi daxil ola bilər. Pul köçürmələri diaspor üzvləri tərəfindən öz ölkələrinə göndərilən maliyyə dəstəyinə aiddir və çox vaxt bu, yerli iqtisadiyyatda mühüm rol oynayır. Diaspor üzvləri tərəfindən qoyulan sərmayələr mənşə ölkəsində biznesin, infrastrukturun və müxtəlif sektorların inkişafına töhfə verir. Sosial və mədəni töhfələr mədəni irsin qorunması, təhsil təşəbbüslərinin dəstəklənməsi və icmanın inkişafının təşviqi kimi fəaliyyətləri əhatə edir. Adətən, diaspor icmaları daxilində xeyriyyəçilik fəaliyyəti sosial layihələrin, humanitar yardımın və əhalinin sosial təminat proqramlarının maliyyələşdirilməsi ilə nəticələnir. Biliklərin ötürülməsi diaspor və doğma ölkə arasında bilik, bacarıq və təcrübə mübadiləsini nəzərdə tutur ki, bu da təhsil, texnologiya və innovasiya kimi müxtəlif sektorlara əhəmiyyətli dərəcədə təsir göstərə bilər (Fernandes, 2022; Fang və Wells, 2022; Nurse, 2019; Williams, 2018; Gevorkyan, 2022). Bu mühüm sahələr daxilində nüansların və fərqli təcrübələrin başa düşülməsi mənşə ölkəsində sosial-iqtisadi inkişaf potensialından istifadə üçün böyük əhəmiyyət kəsb edir.

Azərbaycan kontekstində diasporla iş üzrə fəaliyyətə cavabdeh olan əsas dövlət qurumu 2002-ci ildə yaradılmış və əsas missiyası bütün dünyada Azərbaycan diasporu ilə əlaqələrin qurulması, təmin etdirilməsindən və milli birliyin möhkəmləndirilməsi üçün dünya azərbaycanlılarına yardımın göstərilməsindən ibarət olan Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsidir. Onun rolu xaricdə yaşayan azərbaycanlılarla vətənləri arasında əlaqələri inkişaf etdirmək üçün iqtisadi, sosial və mədəni proqramları idarə etməyi nəzərdə tutur. İnvestisiyaların dəstəklənməsindən tutmuş sosial və təhsil dəstəyinin təmin edilməsinə qədər bütün məsələlərdə Komitə müvafiq siyasətin koordinasiyası, vətəndaş hüquqlarının müdafiəsi və diaspor təşkilatları ilə əlaqələrin təşviqinə cavabdehdir. Bundan əlavə, onun qarşısına informasiyanı şəffaf şəkildə yaymaqla təhlükəsiz əməliyyat mühitini təmin etmək və son nəticədə diasporun yerli və beynəlxalq səviyyədə birliyi və təsirini gücləndirmək vəzifəsi qoyulub. Təcrübədə komitənin diasporla iş üzrə əsas təşəbbüsləri mədəni irsin

qorunmasına xüsusi diqqət ayırmaqla diaspor üzvlərinə uyğun olan tədbirlərin təşkili ətrafında cəmlənib. Bu təşəbbüslərin diqqətəlayiq nümunələri arasında 2018-2023-cü illərdə dörd dəfə keçirilmiş Diaspor Gənclərinin Yay Düşərgələrini göstərmək olar. Bu düşərgələr gənclər siyasəti, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, mədəniyyətlərarası dialoq, diasporun inkişafı, mədəni maarifləndirmə, idman və media təmsilçiliyi də daxil olmaqla geniş çeşiddə mövzuları əhatə edir (Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin rəsmi saytı, tarix göstərilməyib).

Nəzərə alsaq ki, Azərbaycanda diasporla mədəni iş sahəsində işlər artıq yaxşı qurulub, bu hesabatda əsas diqqət iqtisadi və sosial sahələrdə fəaliyyət, eləcə də diasporla iş üzrə institusional təşkilat məsələlərinə ayrılıb. Həmçinin, burada iş proseslərinin çətin vaxtlara və böhranlara necə uyğunlaşdırılması araşdırılır. Aşağıdakı bölmələrin hər birində müxtəlif ölkələrdən misallar gətirməklə müvafiq sahə üzrə əsas siyasətlər və proqram variantları işıqlandırılır. Hesabat müxtəlif iş təcrübələri və siyasətlərini nümayiş etdirməklə, Azərbaycanda siyasət hazırlayan şəxslər üçün diasporla iş siyasətlərinin təkmilləşdirilməsi və dünyanın müxtəlif yerlərində Azərbaycan vətəndaşları ilə daha güclü əlaqələrin inkişaf etdirilməsi baxımından dəyərli alət qismində çıxış etmək məqsədi daşıyır.

# 1. İqtisadi fəaliyyət üzrə ən qabaqcıl təcrübələr

Diaspor icmaları ilə iqtisadi fəaliyyət mürəkkəb və çoxşaxəlidir. O, müxtəlif maliyyə kanalları üzrə effektiv təsir üçün uyğunlaşdırılmış siyasətləri nəzərdə tutur. Bu bölmədə müvafiq strategiyalar, siyasətlər və dünya üzrə real misallar araşdırılmaqla diasporun iqtisadi iştirakının artırılması yolları nəzərdən keçirilir (**Cədvəl 1**). Diasporla İqtisadi fəaliyyət sahəsi diaspor üzvlərinin maddi töhfələri, o cümlədən pul köçürmələri, birbaşa sərmayələrvə kapital bazarına investisiyalardan təşkil olunur.

## 1.1 Pul köçürmələri

Miqrasiya və inkişaf arasında ən nəzərəçarpan əlaqə kimi pul köçürmələrinə nəzarəti və təşviqi balanslaşdırmaq üçün diqqətlə hazırlanmış siyasətlər tələb edir. Belə bir sual yaranır: ölkələr pul köçürmələrini cəlb etmək və saxlamaq üçün nə edə bilərlər?

**A. Liberal pul köçürmə rejimləri**

Pul köçürmələrini həvəsləndirmək və saxlamaq üçün birinci variant pul köçürmə rejimlərinin liberallaşdırılmasından ibarətdir (Gayle və digərləri, 2013). Vyetnam və Tacikistan kimi ölkələrdə keçmiş təcrübəyə aid misallardan göründüyü kimi, sərt pul köçürmə qaydalarının əngəllərini dərk edən ölkələr daha liberal pul köçürmə rejimlərinin yaradılması istiqamətində hərəkət edirlər. Bu cür keçid sərt pul köçürmələri qaydalarının mənfi təsirlərini dərindən dərk etməkdən irəli gəlir. Pul köçürmələrinin vergiyə cəlb edilməsi vergi öhdəliklərini artıq yerinə yetirən miqrantlar üçün yalnız ikiqat vergitutma ilə nəticələnmir,

həm də pul köçürmələri ilə bağlı ümumi xərclərin artmasına xidmət edir. Öz növbəsində, bu artım, göndərilən pul baratlarının həcminin azalmasından ibarət olan qeyri-məhsuldar təsirə malikdir (Carling, 2004; Sander və Maimbo, 2003; Aycinena və digərləri, 2010). Bundan başqa, ciddi nəzarət tədbirlərinin tətbiqi qeyri-rəsmi köçürmələri təşviq edir ki, bu da ÜDM hesablamalarında nəzərə alınmadığından ölkənin valyuta vəziyyətinin zəifləməsinə şərait yaradır və əlavə olaraq təhlükəsizlik risklərinə səbəb olur (Nurgaliyev və digərləri, 2015). Nəticə etibarı ilə, üstünlük təşkil edən tendensiya məhdudlaşdırıcı tədbirlərdən uzaqlaşmaq və maneələri aradan qaldırmağa yönəlmiş strategiyanı qəbul etməkdir.

**B. Pul köçürmə infrastrukturunun gücləndirilməsi**

Pul köçürmələrini həvəsləndirmək və saxlamaq üçün ikinci strategiya pul köçürmə infrastrukturunun gücləndirilməsindən ibarətdir. Bu, müxtəlif siyasətləri nəzərdə tuta bilər. Birincisi, qeyri-rəsmi sistemlərdən rəsmi sistemlərə keçidi asanlaşdırmaq çox vacibdir ki, bu da maliyyə inklüzivliyinə şərait yaratmaqla yanaşı qeyri-formal köçürmələrlə bağlı təhlükəsizlik problemlərini də həll edir. “Bankdan kənar olanları banklaşdırma” üzrə siyasət strategiyalarına (Meksikada olduğu kimi) əsasən, tənzimlənməyən miqrantlar üçün konsulluq şəxsiyyət vəsiqələrinin təklif edilməsi, maliyyə savadlılığı təlimlərinin keçirilməsi və bankların miqrantlar üçün daha əlverişli vəziyyətə gətirilməsi daxil edilə bilər. Bu təşəbbüslər maliyyə inklüzivliyini təşviq edir və miqrantların formal maliyyə sistemləri ilə əlaqə qurması üçün təhlükəsiz və dəstəkləyici mühit yaradır (Virak və digərləri, 2022; Chuc və digərləri, 2022). Qəbul edən ölkədə iqtisadi inkişafı birbaşa köçürülən vəsaitlərin daha əhəmiyyətli hissəsi ilə gücləndirilməsini təmin etmək üçün başqa bir strategiya maliyyə xidmətləri göstərənlər arasında rəqabəti təşviq etməklə əməliyyat xərclərini azaltmaqdan ibarətdir. Bundan əlavə, köçürmə rüsumları haqqında məlumatı ictimaiyyətə təqdim etməklə şəffaflığın təşviqi miqrantlara əsaslandırılmış qərarlar qəbul etmək və daha sərfəli alternativləri nəzərdən keçirmək imkanı verir (Siegel və Luecke, 2013).

**C. Pul köçürmələrinin daha məhsuldar investisiyası üçün imkanların yaradılması**

Diasporun pul köçürmələrini cəlb etmək və saxlamaq üçün üçüncü strategiya daha məhsuldar investisiya imkanlarının yaradılmasından ibarətdir. Bu, pul köçürmələri alanlara əlavə maliyyə xidmətlərinin, o cümlədən pul köçürmələri ilə təmin olunan ipotekaların, qısamüddətli kreditlərin və ya sığorta kimi innovativ təkliflərin çarpaz satışını nəzərdə tutur (Hagen-Zanker, 2014). Kolumbiya və Burkina Faso kimi ölkələr müvafiq proqramları sıfırdan qurmağın effektivliyini nümayiş etdirərək, onları diasporun xüsusi ehtiyaclarına uyğunlaşdırıblar. Meksika və Filippin yerli sakinlər üçün nəzərdə tutulmuş mövcud proqramları genişləndirərək öz diaspor icmalarının xüsusi şəraiti və istəklərinə uyğunlaşdırmaq üçün təkmilləşdiriblər.

## 1.2 Birbaşa investisiyalar

Birbaşa investisiyalar maddi diaspor töhfəsinin digər bir mühüm formasıdır. Əsasən özəl xarakter daşıyan və çox vaxt qısamüddətli ehtiyaclar üçün istifadə edilən pul köçürmələrindən fərqli olaraq, birbaşa investisiyalar sahibkarlığı inkişaf etdirmək, texnoloji köçürmələri stimullaşdırmaq və prioritetli iqtisadi sektorların inkişafına töhfə vermək potensialına malikdir (Franc və digərləri, 2020; Siwale, 2018). Diaspor yerli şərait, tənzimləmə tələbləri və mədəni xüsusiyyətlər haqqında təfərruatlı anlayışa malik olduğundan bu cür investisiyaları cəlb etmək baxımından unikal imkan sahibidir. Belə insayder bilikləri diaspor üzvlərinə investisiya imkanlarının daha effektiv qiymətləndirilməsi üçün şərait yaratmaqla yanaşı dil və mədəni biliklər sayəsində naməlum mühitlərlə bağlı riskləri azaldır (Siwale, 2018; Leblang, 2010; Rodriguez-Montemayor). Diaspor investisiyalarının potensialından hərtərəfli istifadə etmək üçün balanslaşdırılmış yanaşma tələb olunur; emosional bağlar qərar qəbuletmə prosesində qərəzsizliyi və müstəqilliyi bəzən təhlükə altında qoysa da, belə amillərə həddindən artıq çox diqqət yetirilməməli, diaspor isə rasional iqtisadi aktor kimi tanınmalıdır. Ölkələr diaspordan birbaşa investisiyaları stimullaşdırmaq üçün nə edə bilərlər?

**A. İnformasiyaya çıxışın təmin olunması**

Diaspordan birbaşa sərmayələri cəlb etmək üçün siyasət variantlarından biri investisiya prosedurları və tələbləri haqqında informasiyaya asan çıxışın təmin edilməsini nəzərdə tutur. Yalnız diaspora deyil, xarici investorlara da xidmət göstərən və istifadəçilər üçün əlverişli, onlayn "vahid pəncərənin" yaradılması ilə buna nail olmaq mümkündür (Globerman və Chen, 2010). 1992-ci ildə dövlət qurumu kimi yaradılmış Efiopiya İnvestisiya Komissiyası (EİA) nümunəvi model sayılır. EİA zəruri informasiyanı və prosedurları sadələşdirməklə özəl investisiyaların və birbaşa xarici sərmayələrin təşviqində önəmli rol oynayır. Bu strategiyanın bir hissəsi olaraq, diaspor üzvlərinə imtiyazlı xidmətlərin və uyğunlaşdırılmış informasiyanın təqdim edilməsi onların investisiya tədbirlərində iştirakını stimullaşdırmağa, eləcə də diasporu doğma ölkəsində iqtisadi inkişaf təşəbbüslərində fəal iştiraka həvəsləndirən dəstəkləyici mühiti təşviq etməyə xidmət edir.

**B. Şəbəkələrə və təlimlərə çıxışın təmin olunması**

Başqa bir siyasət variantı şəbəkələrə çıxışın təmin edilməsini nəzərdə tutur. Çox vaxt dövlətlər diaspor icmaları və beynəlxalq təşkilatlarla əməkdaşlıq edərək diaspor biznes şəbəkələri yaradırlar. Bəzilərinin virtual olduğu bu şəbəkələr əlaqələrin inkişafı və investisiya imkanlarının asanlaşdırılması üçün vacib platforma rolunu oynayırlar. Onların strukturunda ödənişsiz üzvlükdən ödənişli xidmətlərə qədər müxtəliflik diasporun fərqli seqmentləri arasında inklüzivliyi və qarşılıqlı əlaqəni təmin edir (Dutia, 2012; Sirkeci və Zeren, 2018). Keniya Diaspor Alyansı tərəfindən "Diaspora Investment Club Limited" Şirkəti vasitəsilə təşkil edilən Keniya Diasporunun İllik Vətənə Qayıdış Qurultayı (KDHC) bu cür şəbəkələrin təsirinin bariz nümunəsidir. Bu üç günlük tədbir diaspor icmaları, yerli ailələr, investorlar, korporasiyalar, mütəxəssislər, səfirliklər, tələbələr, dəstək təşkilatları və xidmət təminatçıları da daxil olmaqla geniş spektrdə maraqlı tərəfləri strateji şəkildə hədəfləyir. Diasporun rəhbərlik etdiyi texnologiyalara və Afrika şəbəkələrinə həsr olunmuş şəbəkə tədbirlərinin hökumət tərəfindən həyata

keçirildiyi Mərakeşdə oxşar təşəbbüslər diasporun göndərdiyi birbaşa investisiyaların inkişafı istiqamətində bu cür siyasətlərin universallığını və effektivliyini nümayiş etdirir.

**C. Sahibkarların maliyyə vəsaitlərinə çıxışını asanlaşdırma**

Üçüncü siyasət variantı sahibkarların maliyyə vəsaitlərinə çıxışını asanlaşdırmaqdan ibarətdir. Ölkələr beynəlxalq və ya özəl təşkilatlarla əməkdaşlıq edərək, sərmayələrin təşviqi üçün müxtəlif maliyyə alətlərini tətbiq edə bilərlər (Poliakova və digərləri, 2019). Meksikanın "Tres por Uno (3x1)" Proqramında olduğu kimi, buraya qrantların verilməsi, ortaq maliyyə proqramlarının hazırlanması, sərfəli faiz dərəcələri ilə kreditlərin təklif edilməsi, habelə kiçik və orta müəssisələrin (KOM) yaradılmasını asanlaşdırmaq üçün vergi güzəştlərinin tətbiqi daxildir. Kolumbiyanın diqqətəlayiq mısalı, sahibkarlara kredit vermək üçün əməkdaşlıq edən Kolumbiya "Nos Une" Proqramı ilə bu ölkənin Xarici Ticarət Bankı arasında tərəfdaşlıqdan ibarətdir ki, bu da dövlət-özəl sektor tərəfdaşlığının təsirini nümayiş etdirir. Bundan əlavə, Almaniya İnkişaf Agentliyi kimi beynəlxalq qurumlar xüsusi olaraq diaspor təşkilatları üçün hazırlanmış maliyyə imkanlarını təklif edirlər. Belə təşəbbüslər maliyyə maneələrini aradan qaldırmaqla yanaşı dayanıqlı iqtisadi artım və inkişaf üçün əlverişli mühit yaratmaqla diaspordan olan sahibkarları həvəsləndirir və gücləndirirlər.

## 1.3 Kapital bazarına investisiya

Pul köçürmələrinə və birbaşa investisiyalara əlavə olaraq, diasporla kapital bazarlarında iş maliyyə töhfələri üçün əhəmiyyətli, lakin çox vaxt diqqətdən kənar qalan kanallar təqdim edir. Kapital bazarına qoyulan investisiyalar hökumətlərə həm dövlət investorlarından, həm də diaspordan uzunmüddətli maliyyə vəsaiti cəlb etmək, bu resursları mühüm inkişaf layihələrinə yönəltmək və tədiyə balansının ehtiyaclarını ödəmək imkanı təklif edir. Bu dinamik bazar səhmlər, istiqrazlar, kreditlər və aktivlə təmin olunmuş müxtəlif növdə qiymətli kağızları əhatə edir. Diaspor istiqrazları dövlətin xaricdəki vətəndaşları üçün buraxdığı borc alətlərini təmsil edərək kapital bazarına investisiyaların üstünlük

təşkil edən təsirli formasına çevrilir. Uzun müddət ərzində faizlə ödənilən bu istiqrazlar diasporlar tərəfindən "vətənpərvərlik endiriminin" qəbul olunmasına gətirib çıxara bilər (Ketkar və Ratha, 2007). Burada uğur şərtlərini və diaspor istiqrazlarının uğuru və ya uğursuzluğuna səbəb olan amilləri başa düşmək çox vacibdir. İlkin uğur şərtlərinə aşağıdakılar daxildir:

1. Xüsusilə yüksək gəlirli İƏİT ölkələrində məskunlaşmış kifayət qədər böyük və nisbətən zəngin diasporun mövcudluğu.
2. Birinci nəsil miqrantların əhəmiyyətli faiz nisbətində olması, çünki böhran vəziyyətlərini istisna etsək, zamanla vətənpərvərlikdən əldə edilən faydalar potensial olaraq azalır.
3. Nisbi maddi və siyasi sabitliyi, münaqişlərin olmamasını və təsisatlara yüksək etimadı tələb edən dövlət idarəçilik potensialı.
4. Xüsusi miqrant bazarlarına uyğunlaşdırılmış alətlər hazırlamaq, o cümlədən beynəlxalq tənzimləyici orqanların tələblərinə əməl etmək bacarığı.

**Cədvəl 1. Dünyada diasporla iqtisadi fəaliyyət strategiyalarına aid misallar**

| İqtisadi fəaliyyət sahəsi | Strategiya/ Siyasət | Ölkə misalı | Təsvir |
|---|---|---|---|
| **PUL KÖÇÜRMƏLƏRİ** | Pul köçürmə infrastrukturunu gücləndirmək<br>➔ Tənzimlənməyən miqrantlar üçün konsulluq tərəfindən şəxsiyyət vəsiqələrinin təklif edilməsi | Meksika | **"Matrícula consular" sənədi**<br>• "Matrícula consular" meksikalıların ABŞ-da tanınmış və ştatlar, bələdiyyələr və müəssisələrin qəbul etdiyi şəxsiyyət vəsiqəsi kimi istifadə olunur.<br>• Maliyyə institutlarının geniş şəkildə qəbul etdiyi kart təhlükəsiz və səmərəli əməliyyatları asanlaşdıran etibarlı şəxsiyyət vəsiqəsidir.<br>• Bu sənəd Meksika vətəndaşlarının sürücülük vəsiqəsi alması, mobilliyinin təşviq edilməsi və yerli icmalara inteqrasiyası üçün bir neçə ştat tərəfindən tanınıb. |

| İqtisadi fəaliyyət sahəsi | Strategiya/ Siyasət | Ölkə misalı | Təsvir |
|---|---|---|---|
| | | | • Beş il müddətinə verilən bu vəsiqə onun sahibinin davamlı əlçatanlığını təmin edən ünvana dair sübutu müvafiq konsulluğa təqdim etməklə yenilənə bilər ("CitizenPath" Xidməti, tarix göstərilməyib). |
| | Pul köçürmələrinin daha məhsuldar investisiyası üçün imkanlar təqdim etmək<br>➔ Pul köçürmələri alanlara, məsələn, pul köçürmələri ilə təmin olunan ipotekalar, qısamüddətli kreditlər, sığorta formasında əlavə maliyyə xidmətlərinin çarpaz satışı | Kolumbiya | **"Mi Casa con Remesas" Proqramı**<br>• "Kolumbiya Nos Une" Qrupu tərəfindən Kolumbiya Milli Bankı və Amerikalararası İnkişaf Bankı (İİB) ilə birgə həyata keçirilən "Mi Casa con Remesas" maliyyə yardımına ehtiyacı olan emiqrntların ev almasını asanlaşdıran mənzil proqramıdır ("Kolumbiya Nos Une" Qrupu, tarix göstərilməyib). |
| | | Filippin | **"Pag-IBIG" Əcnəbi Proqramı**<br>• "Pag-IBIG" Əcnəbi Proqramı xaricdəki filippinli işçilərə, immiqrantlara və naturalizasiya olunmuş vətəndaşlara Filippində ev almaqda kömək etmək üçün nəzərdə tutulan könüllü əmanət proqramıdır. Proqramda iştirakçılara gələcək mənzil investisiyaları üçün əmanət toplamaq məqsədilə ayda minimum 5 ABŞ dolları məbləğində maddi töhfə vermək imkanı yaradılıb. |

| İqtisadi fəaliyyət sahəsi | Strategiya/ Siyasət | Ölkə misalı | Təsvir |
|---|---|---|---|
| | | | • "Pag-IBIG" Əcnəbi Proqramının iştirakçıları müxtəlif imtiyazlar, o cümlədən mənzil kreditləri, çox məqsədli kreditlər və dividendlər əldə etmək hüququna malikdirlər ("Pagibig Financing" Fondu, tarix göstərilməyib). |
| **BİRBAŞA İNVESTİSİYA** | İnformasiyaya çıxışın təmin olunması<br>➔ (Yalnız diasporlar deyil, xarici investorlar üçün də) onlayn "vahid pəncərənin" yaradılması | Efiopiya | **EİC komissiyası**<br>• 1992-ci ildə Efiopiyada özəl investisiyaları, xüsusilə də birbaşa xarici investisiyaları təşviq etmək üçün EİC yaradılıb. Bu komissiya biznes lisenziyaları, investisiya icazələri və vergi güzəştləri kimi xidmətlər üçün sadələşdirilmiş onlayn portalı təqdim edir.<br>• Efiopiya diasporu ilə aktiv şəkildə qarşılıqlı fəaliyyət göstərən EİC bu ölkədə investisiya imkanlarını təşviq edən müxtəlif təşəbbüslər və forumlar vasitəsilə diaspor investisiyalarını stimullaşdırır və asanlaşdırır (EİC, tarix göstərilməyib). |

| İqtisadi fəaliyyət sahəsi | Strategiya/ Siyasət | Ölkə misalı | Təsvir |
|---|---|---|---|
| | | Albaniya | **“Connect Albania” Proqramı**<br>• Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) Albaniyadakı layihəsi çərçivəsində hazırlanmış “Connect Albania” Proqramı alban diasporunu iqtisadi inkişafa cəlb edir. Proqram diaspor üzvlərinin “inkişaf agentləri” olması üçün onlara sektor informasiyasına çıxış imkanı verərək və investisiya prosesində rəhbərlik edərək rəqəmsal tətbiqlərin istifadəsinə şərait yaradır.<br>• “Connect Albania” Proqramı alban diaspora üzvlərini iqtisadi inkişafa töhfə vermək məqsədilə “inkişaf agentləri” olması üçün rəqəmsal müraciət təqdim etməyə çağırır. Qeydiyyatdan keçdikdən sonra onlar biznesin qeydiyyatı, strateji investisiya sahələri və qanunvericilik aktları haqqında ətraflı informasiyaya çıxış əldə edirlər (BMqT, 2021). |

| İqtisadi fəaliyyət sahəsi | Strategiya/ Siyasət | Ölkə misalı | Təsvir |
|---|---|---|---|
| | Şəbəkələrə çıxışın təmin olunması<br>➔ (Onlayn) diaspor biznes şəbəkələrinin yaradılması | Keniya | **KDHC qurultayı**<br>• İllik tədbir olan KDHC vacib hadisələri qeyd etmək, şəbəkə qurmaq və iqtisadi maraqları müzakirə etmək üçün xaricdəki keniyalıları bir araya gətirir. Bu qurultay diaspor əlaqələri, təcrübə mübadiləsi, şəxsi və virtual iştirak vasitəsilə investisiya imkanlarının araşdırılması üçün platforma rolunu oynayır.<br>• Qurultay imkanlar, gələcək proqnozlar və təşkilatlarla qarşılıqlı əlaqə haqqında yeniliklərə şərait yaradan şəbəkə sessiyalarından, panel müzakirələri və sərgilərdən təşkil olunur. Hibrid formatı sayəsində KDHC dünyanın hər yerindən iştirakçılara həm şəxsi, həm də virtual əlaqə yaratmağa imkan verir (KDHC, tarix göstərilməyib). |
| | | Livan | **"DiasporaID" Platforması**<br>• 2017-ci ilin avqustunda Livan Hökuməti tərəfindən USAID-in maliyyə dəstəyi ilə istifadəyə verilmiş rəqəmsal platforma olan DiasporaID xaricdəki livanlılarla Livan arasında əlaqələri gücləndirmək məqsədi daşıyır.<br>• DiasporaID Livana xarici investisiyaları artırmaq üçün ölkə diasporu ilə daha güclü qarşılıqlı əlaqəyə şərait yaradır (Maamary, 2018). |

| İqtisadi fəaliyyət sahəsi | Strategiya/ Siyasət | Ölkə misalı | Təsvir |
|---|---|---|---|
| | Sahibkarların maliyyə vəsaitlərinə çıxışını asanlaşdırmaq<br>➔ Hökumətlər (və ya beynəlxalq / özəl təşkilat-lar) qrantlar, ortaq maliyyə proqramları, sərfəli faiz dərəcələri ilə kreditlər, eləcə də KOM-ların yaradılmasını asanlaşdır-maq üçün vergi güzəştləri təklif edə bilərlər | Meksika | **“Tres por Uno (3x1)” Proqramı**<br>• Proqram xaricdəki meksikalıları doğma şəhərlərinin inkişafına sosial infrastruktur və layihələr vasitəsilə töhfə verməyə təşviq edir.<br>• Ortaq maliyyə vəsaitləri prinsipi əsasında fəaliyyət göstərən proqram miqrantların ayırdığı hər bir maliyyə vahidinə bələdiyyə, ştat və federal orqanların kollektiv şəkildə üç maliyyə vahidini əlavə etməsini nəzərdə tutur.<br>• “3x1” Proqramı sosial və iqtisadi ehtiyacların, o cümlədən infrastruktur, təhsil, səhiyyə və istehsal təşəbbüslərinin həllinə yönəldilmiş layihələrə şərait yaradır (Gobierno de México, 2017). |

<table>
<tr><th>İqtisadi fəaliyyət sahəsi</th><th>Strategiya/ Siyasət</th><th>Ölkə misalı</th><th>Təsvir</th></tr>
<tr><td rowspan="2">KAPİTAL BAZARINA İNVESTİSİYA</td><td rowspan="2">Diaspor istiqrazları</td><td>İsrail</td><td>“Israel Bonds” istiqrazları<br>• İsraildəki diaspor istiqrazları yəhudi diasporunu hökumətin maliyyələşdirilməsinə cəlb etmək üçün 1951-ci ildən istifadə olunan maliyyə alətidir.<br>• İctimai infrastruktur, mənzil inşaatı, səhiyyə və digər inkişaf layihələri üçün vəsait toplamaq məqsədilə diaspor üzvlərinə yüksək qiymətə satılan bu istiqrazlar vasitəsi ilə onların vətənpərvərlik hissindən istifadə olunur (Ketkar və Ratha, 2010).</td></tr>
<tr><td>Hindistan</td><td>“India’s Diaspora Bonds” istiqrazları<br>• Hindistandakı diaspor istiqrazları hökumətin xaricdəki hindlilərdən maliyyə vəsaiti toplamaq üçün buraxdığı borc alətidir və həmin şəxslərə öz vətənlərində investisiya imkanı verir.<br>• 1991-ci ildən etibarən Hindistan bu istiqrazları üç dəfə uğurla buraxaraq 35 milyard ABŞ dollarından çox vəsait toplayıb.<br>• Burada əsas məqsəd maliyyə cəhətdən çətin dövrlərdə tədiyyə balansını dəstəkləməkdir (Ketkar və Ratha, 2010).</td></tr>
</table>

# 2. Diasporla sosial fəaliyyət üzrə ən qabaqcıl təcrübələr

Bilik və bacarıqların ötürülməsinə və xeyriyyəçiliyə yönəlmiş diasporla sosial fəaliyyət məsələləri bu bölmədə araşdırılır. Burada diasporun effektiv sosial iş strategiyalarının əsasını təşkil edən əsas siyasət və proqram variantları nəzərdən keçirilir, sonra isə müxtəlif ölkələrdən diasporla sosial fəaliyyət məsələlərinə dair ən qabaqcıl təcrübə nümunələri verilir (**Cədvəl 2**).

## 2.1 Bilik və bacarıqların ötürülməsi

Bilik və bacarıqların ötürülməsi diaspor təcrübələrini mənşə ölkələrinə yönəltməklə, "beyin axını" adlı prosesə qarşı tarazlıq yaratmaq üçün unikal imkanlar təqdim edir. Bu cür köçürmənin asanlaşdırılması daimi, müvəqqəti və ya virtual görünə bilən qayıdış konsepsiyası ilə bağlı mülahizələrin nəzərdən keçirilməsini tələb edir.

Hökumətlər qayıdışın stimullaşdırılmasında həlledici rol oynayırlar və burada mümkün yollardan biri biliklərin ötürülməsi məqsədilə müvəqqəti qayıdış üçün BMqT kimi beynəlxalq təşkilatlarla əməkdaşlıq etməkdir. Hökumətlər qeyri-siyasi, inkişaf yönümlü proqramlarda iştirak etməklə ixtisaslı işçi qüvvə çatışmazlığı ilə üzləşən prioritetli sektorlarda əsas vəzifələri tutacaq diaspor üzvlərinin müvəqqəti qayıdışını əlaqələndirmək məqsədilə BMqT ilə əməkdaşlıq edirlər. Bir neçə həftədən bir ilə qədər və ya daha çox davam edən bu qayıdış proqramları öz müddətinə görə dəyişir və xüsusi dəhlizləri hədəfə ala və ya hər bir ölkənin unikal ehtiyaclarına uyğunlaşdırılmış daha geniş regional yanaşmanı nəzərdə tuta bilər. Bu cür təşəbbüslərin uğuru diaspor üzvlərini bilik və bacarıqların ötürülməsi üçün geri qayıtmağa təşviq edən əlverişli şəraitdən

asılıdır. Əsas uğur amillərinə miqrantın qəbul edən ölkədə güclü inteqrasiyası və qayıdışının vətəni üçün əhəmiyyətli faydalar verəcəyinə səmimi inamı daxildir (Ionescu, 2006).

Daimi və ya müvəqqəti qayıdışın təşviqi üçün başqa bir variant diaspor üzvlərinin qayıtdıqdan sonra qarşılaşa biləcəyi praktiki problemlərin həllinə yönəldilmiş hərtərəfli stimul zərflərini hazırlamaqdan ibarətdir. Bu stimullar münasib mənzil tapmaqda köməyin göstərilməsi, köçmə xərclərinin ödənilməsi, o cümlədən yaxın ailə üzvləri üçün aviabiletlərin əldə olunması, tibbi və bədbəxt hadisələrdən sığortanın təmin edilməsi, geri qayıdanın işi üçün lazım olan avadanlıq və ədəbiyyatın təqdim edilməsi, əmək haqqının artırılması və hətta qayıtdıqdan sonra yeni ev almaq barədə qərar qəbul olunarsa, ipoteka ödənişləri üçün subsidiyaların ayrılması kimi praktiki dəstəkdən ibarət ola bilər. Burada düzgün balans saxlamaq olduqca vacibdir: effektiv ahəng yerli əhali arasında narazılıq yaratmadan diaspor üzvlərini cəlb etmək üçün yetərincə cəlbedici olmalıdır. Geri qayıdanların öz rollarına uyğun olmasını, yerli kadrların iş yerlərini təsadüfən tutmamasını və ya mövcud biznes subyektlərinə xələl gətirməməsini təmin edərək stimul zərflərini xüsusi kontekstə uyğunlaşdırmaq önəmlidir (Bilgili və Siegel, 2015; Binkerhoff, 2012).

Son illərdə internet və kommunikasiya texnologiyalarından istifadə sayəsində virtual qayıdış konsepsiyası da ön plana çıxıb. Bu innovativ yanaşma miqrantlara öz mənşə ölkələrinə fiziki şəkildə qayıtmağa ehtiyac olmadan biliklərini ötürmək imkanı verir. Virtual qayıdışın iqtisadi səmərəliliyi onu yalnız fərdi səviyyədə deyil, təşkilatlar və ya şəbəkələr arasında da bilik mübadiləsinə imkan verən cəlbedici varianta çevirir. Distant işlə bağlı inkişaf edən vəziyyət diasporla iş strategiyasının uyğunlaşma keyfiyyətini və səmərəliliyini nümayiş etdirir və bu cür mexanizmlərin tətbiqi baxımından mümkünlüyünü daha da artırır (O›Dowd, 2018; Hiller və Franz, 2004).

## 2.2 Xeyriyyəçilik

Diaspor xeyriyyəçiliyi diaspor icmalarının xoş niyyəti və resurslarını mənşə ölkələrində altruistik məqsədlərə yönəldir. Çox vaxt ianəçilər, xeyriyyəçilik fəaliyyəti ilə məşğul olan diaspor icmalarının yaratdığı vətəndaş cəmiyyəti təşkilatları şəklində vasitəçilərdən istifadə etməklə fərdi və ya kollektiv ianələr edə bilirlər. Bu cür xeyriyyəçiliyə təkan verən motivlər müxtəlifdir. O, geniş spektrdə məqsəd və imkanları əhatə edir və maddi ianələrlə, natural formada töhfələrlə və ya müəyyən bir təşəbbüs üçün vaxt ayırmaqla ifadə oluna bilər. Bu cür yeni yaranmış xeyriyyəçilik forması adi, sərvətə əsaslanan yardımdan daha inklüziv, icma yönümlü yanaşmaya keçidi simvolizə edən "qeyri-elitar xeyriyyəçi" idealını təcəssüm etdirməklə xeyriyyəçilik barədə ənənəvi qavrayışları alt-üst edir (Binkerhoff, 2013; Agunias və Newland, 2012).

Xeyriyyəçilik bir çox icmanın mədəni strukturunda dərin kök salsa da, həm təyinat, həm də mənşə ölkələrində siyasi qərarların təsiri məsələsinə lazımi qiymət verilməlidir. Effektiv siyasət tədbirləri vergi güzəştləri və ortaq qrant proqramlarından xeyriyyə və qeyri-kommersiya təşkilatlarının sertifikatlaşdırılması və monitorinqinə qədər bir sıra alətləri əhatə edir. Bundan əlavə, internet əsaslı platformaların təşviqi və potensialın artırılması fəaliyyətləri diaspora xeyriyyəçiliyinin təqdir olunmasında həlledici rol oynaya bilər. Yenə də balansın təmin edilməsi olduqca vacibdir: dövlət siyasəti bu fəaliyyətlərin xeyriyyəçilərin daxili motivləri ilə idarə olunmasını təmin edərək və dayanıqlı inkişafa birgə yanaşma üçün şərait yaradaraq diaspor xeyriyyəçiliyi təşəbbüslərinə cüzi dəstək verməlidir.

**Cədvəl 2.** **Dünyada diasporla sosial fəaliyyət strategiyalarına aid misallar**

| Sosial fəaliyyət sahəsi | Strategiya/Siyasət | Ölkə misalı | Təsvir |
|---|---|---|---|
| **BİLİK VƏ BACARIQLARIN ÖTÜRÜLMƏSİ** | Müvəqqəti qayıdışı stimullaşdırmaq<br>➔ Beynəlxalq təşkilatlarla, məsələn, BMqT ilə tərəfdaşlığın qurulması | Niderland və Efiopiya, Qana, İraq, Mərakeş, Sierra Leone və Somali/ Somaliland (Əfqanıstanda müvəqqəti dayandırılıb) | **“Diasporu inkişaf üçün birləşdirmək (CD4D)” Proqramı**<br>• BMqT-nin Niderlanddakı Nümayəndəliyinin və Niderland Hökumətinin rəhbərlik etdiyi “CD4D” Proqramı hazırda Əfqanıstanda müvəqqəti dayandırılsa da, Efiopiya, Qana, İraq, Mərakeş, Sierra Leone və Somali/ Somalilənddən olan diaspor üzvlərinin qayıdışını asanlaşdırır.<br>• Proqramın 2-3 aylıq müddəti ərzində iştirakçılar öz ölkələrində uzunmüddətli iştiraka xüsusi diqqət ayıraraq və ardıcıl tapşırıqlar üzərində iş apararaq biliklərin ötürülməsi və bacarıqların artırılması fəaliyyətləri ilə məşğul olurlar.<br>• BMqT tərəfindən seçilən qəbuledici təşkilatlara nazirliklər, xəstəxanalar və ali təhsil müəssisələri daxildir; proqram biliklərin ötürülməsi işinin effektivliyini artırmaq üçün təyinatdan öncə məcburi təlimin keçirilməsini nəzərdə tutur və ekspertlərə izləmə tədbirləri vasitəsilə daimi təsirləri nəzarətdə saxlayaraq dayanıqlılıq üçün çıxış strategiyaları qurmaq tövsiyə olunur (“CD4D” Proqramı, tarix göstərilməyib). |

| Sosial fəaliyyət sahəsi | Strategiya/Siyasət | Ölkə misalı | Təsvir |
|---|---|---|---|
| | Müvəqqəti/ daimi qayıdışı stimullaşdırmaq<br>➔ Qayıdışdan sonra diaspor üzvlərinin qarşılaşa biləcəyi praktiki, yəni, mənzil, köçmə xərcləri və s. ilə bağlı problemlərin həllinə yönəlmiş hərtərəfli stimul zərflərinin hazırlanması | İrlandiya | **Geri qayıdan irlandiyalı emiqrantlar üçün mənzil dəstəyi**<br>• Xaricdə qalmaq müddətlərindən asılı olmayaraq, İrlandiyaya qayıdan yerli vətəndaşlar bu ölkədə yaşamaq və işləmək hüququna malikdirlər; burada uyğunluq meyarları gəlirə və mənzil ehtiyaclarına əsaslanır.<br>• Maliyyə dəstəyi və yardım proqramları, o cümlədən kirayə dəstəyi və ev almaq sxemləri əlçatandır.<br>• Sosial mənzil üçün müraciət etmək məqsədilə ərizəçilər müəyyən ərazidə yaşamaq, iş, təhsil və ya ailə əlaqələri ilə bağlı xüsusi meyarlara cavab verərək “yerli əlaqə” qurmalıdırlar.<br>• İrlandiyaya qayıdan yaşlı emiqrantlar yerli hakimiyyət orqanları və ya təsdiq edilmiş mənzil qurumları tərəfindən verilən və xüsusi olaraq yaşlılar üçün nəzərdə tutulan sosial mənzillərə çıxış əldə edə bilərlər (Vətəndaşların İnformasiya Bürosu, tarix göstərilməyib). |

| Sosial fəaliyyət sahəsi | Strategiya/Siyasət | Ölkə misalı | Təsvir |
|---|---|---|---|
| | Virtual qayıdışı stimullaşdırmaq<br>➔ Virtual qarşılıqlı fəaliyyəti və bilik mübadiləsini asanlaşdıran təşkilatların yaradılması və ya dəstəklənməsi | Şotlandiya | **"GlobalScot" Şəbəkəsi**<br>• "GlobalScot" Şotlandiya təşkilatlarını bütün dünyada bu ölkə ilə əlaqəsi olan nüfuzlu biznes liderləri, sahibkarlar və peşəkarlarla birləşdirən şəbəkədir.<br>• Tərkibində beynəlxalq bazarlardakı yüksək səviyyəli xadimlərin yer aldığı GlobalScot, ideyalar, informasiya və praktik təcrübə təqdim etməklə Şotlandiya biznesinin qlobal miqyasda genişlənməsinə dəstək verir.<br>• 20 ildən artıqdır ki, fəaliyyət göstərən şəbəkə bilik mübadiləsi və təsirli təqdimatlar vasitəsilə beynəlmiləlləşməni təşviq edərək şotland biznes sahibləri, sahibkarlar və peşəkarlar üçün pulsuz qeydiyyat təqdim edir ("GlobalScot" Şəbəkəsi, tarix göstərilməyib; "Business Scotland" Jurnalı, tarix göstərilməyib). |

| Sosial fəaliyyət sahəsi | Strategiya/Siyasət | Ölkə misalı | Təsvir |
|---|---|---|---|
| **XEYİRİYYƏÇİLİK** | Diaspor xeyriyyə təşkilatlarının yaradılmasını təşviq etmək və artıq mövcud olanları dəstəkləmək | Hindistan | **Amerika-Hindistan Fondu (AHF)**<br>• AHF 2001-ci ildə Hindistanın Baş naziri Atal Bihari Vajpayinin təklifi və ABŞ Prezidenti Bill Klintonun dəstəyi ilə yaradılıb. O, Hindistanda imkansız şəxslərin, xüsusən də qadınların, uşaqların və gənclərin həyatını yaxşılaşdırmağı qarşısına məqsəd qoyan dünyəvi, bitərəf təşkilat kimi fəaliyyət göstərir.<br>• AHF Hindistan diasporundan əhəmiyyətli dəstək alır. Onun proqramları keyfiyyətli təhsili təmin etmək, dayanıqlı dolanışıq vasitələri yaratmaq, ana və uşaq sağlamlığını gücləndirmək məqsədi daşıyaraq təhsil, dolanışıq və ictimai səhiyyə kimi mühüm sahələri əhatə edir.<br>• Hindistanda böyük milli fəlakətlər zamanı AHF yardım, yenidənqurma və uzunmüddətli bərpanı özündə birləşdirən çoxmərhələli yanaşmadan istifadə edərək yardım və bərpa tədbirləri ilə fəal şəkildə məşğul olur. Təşkilatın dövlət qurumları, QHT-lər, vətəndaş cəmiyyəti təşkilatları və müxtəlif maraqlı tərəflərlə əməkdaşlığı sayəsində təmin edilən təsiri əlillər, əməkçi miqrantlar, seks-biznes işçiləri və qəbilə icmaları kimi həssas qrupları əhatə edir (Kashyap və Kakar, 2003; AHF, tarix göstərilməyib). |

# 3. Diasporla iş üzrə institusional təşkilatlara dair ən qabaqcıl təcrübələr

Bu bölmədə ilk olaraq müvafiq siyasət variantlarına malik diaspor institutlarının təsnifatı təqdim edilir, sonra isə müxtəlif ölkələrdən ən qabaqcıl təcrübələrə aid misallar verilir (**Cədvəl 3**).

Bütövlükdə və ya qismən diaspora xidmət göstərmək və ya diasporla iş üçün əlverişli mühit yaratmaq səlahiyyəti olan dövlət və ya yarı-dövlət qurumları kimi müəyyən edilmiş diaspor institutları dayanıqlı inkişaf üzrə əməkdaşlığın təşviqində mühüm rol oynayırlar. Adətən, xarici işlər nazirlikləri diaspor işlərində əsas aidiyyəti tərəf kimi qəbul edilsə də, qlobal miqyasda bu prosesdə iştirak edən saysız-hesabsız qurumlar mövcuddur (Tittel-Mosser, 2023).

Diaspor institutlarını təsnif etmək üçün müxtəlif tipologiyalar təklif olunub. BMqT bu institutları iyerarxik səviyyə, təsir gücü və mandat əsasında təsnif edən sistem təklif edib. Bu sistemdə diaspor institutlarının altı fərqli növü müəyyən edilir: bu təsnifatın zirvəsində müvafiq büdcə ayırmalarına və yüksək səviyyəli dövlət dəstəyinə malik qurumlar qismində *nazirliklər* (və ya nazirlik səviyyəli təşkilatlar) yer alır. Digər tərəfdən, *nazirliyin tabeliyində olan qurumlar* adətən Əmək və (və ya) Xarici İşlər Nazirliyi nəzdində (yanında) fəaliyyət göstərərək, öz mandatlarını əsas təşkilatın daha geniş məqsədlərinə uyğunlaşdırsa da, inkişaf məsələlərinə mütləq şəkildə diqqət yetirmir. Digər *milli* səviyyəli *qurumlara* ali icra hakimiyyəti orqanına birbaşa tabe olan təsisatlar aiddir. Bu qurumlar əhəmiyyətli təsir gücünə malikdir və dövlət iyerarxiyasında strateji mövqelərdə qərarlaşırlar. Yerli hakimiyyət orqanları tərəfindən idarə olunan

*yerli diaspor idarələri* və ya şöbələri diasporla qarşılıqlı fəaliyyət üçün əks-mərkəzləşdirlmiş yanaşmanı təmsil edir və daha yüksək səviyyədəki qurumların səylərini tamamlayırlar. *Konsulluq* şəbəkələri diasporla işin konsulluq xidmətləri çərçivəsində inteqrasiyasını təmin edirlər. Nəhayət, kvazi-hökumət qurumları kimi təsnif edilən *dövlət-özəl orqanları* məşvərət funksiyasını öz üzərinə götürməklə diaspor üzrə institusional landşafta unikal təbəqə əlavə edirlər (Miqrasiya Məlumat Portalı, 2019; Agunias və Newland, 2012).

Gamlen və digərləri (2019) bu kimi altı kateqoriyaya əsaslanan alternativ tipologiya təklif edirlər: *hibrid nazirlik* diasporla iş sahəsindən başqa digər məsələlərlə də məşğul olmaqla xarakterizə edilir; *ixtisaslaşmış nazirlik*, yalnız diaspor işləri ilə məşğul olur; *nazirliyin tabeliyində olan qurum,* struktur bölməsi kimi təqdim olunur; BMqT-nin “digər milli qurumlar” təsnifatına uyğun *icra orqanı*; *Quango*, yarı-özəl qurumları göstərmək üçün nəzərdə tutulmuş şərti termin və qanunvericilik hakimiyyətinə daxil olan qurumları əhatə edən *qanunverici orqan*.

Bu yaxınlarda Avropa İttifaqının Qlobal Diaspora Fondu (EUDiF) yuxarıdakı tipologiyalara əsaslanaraq doqquz növ diaspor institutunu müəyyən edib. Onların mandatı yalnız diaspor məsələlərini nəzərdə tuta və ya hibrid xarakter daşıya bilər (Tittel-Mosser, 2023).

**Şəkil 1. Diaspor institutlarının EUDiF tipologiyası (Tittel-Mosser, 2023, s. 12).**



- **Nazirlik:** ölkələr diasporla iş üzrə nazirliklərin yaradılmasında müxtəlif variantlardan istifadə edirlər. Bəziləri sırf diaspora işləri ilə məşğul olan nazirliklərə üstünlük versə də, nisbətən ümumi yanaşma diasporla işin daha geniş hökumət mandatı çərçivəsində inteqrasiyasını nəzərdə tutur. Xüsusilə, diasporla bağlı öhdəliklərin xarici işlər, maliyyə, iqtisadi və əmək məsələləri ilə əlaqəli funksiyalarla məşğul olmaq üçün yaradılmış hibrid nazirliklərə həvalə edilməsi tendensiyası nəzərə çarpır. Bu strategiya diaspor icmaları ilə əlaqələrin çoxşaxəli xarakterini qəbul edərək diasporla iş məsələlərinə kompleks şəkildə yanaşmaq imkanı verir (Tittel-Mosser, 2023).

- **Nazirlik nəzdində bölmə:** Adətən, Xarici İşlər Nazirliyi nəzdində fəaliyyət göstərən diasporla is üzrə struktur bölmələr diaspor icmaları ilə əlaqə saxlayaraq onların problemlərini həll edən mühüm vasitəçi rolunu oynayırlar. Bu cür bölmələrdən bəziləri yalnız diasporla iş məsələləri ilə məşğul olsa da, digərləri hələ də Xarici İşlər və ya Əmək Nazirliyinin ümumi mandatı altında fəaliyyət göstərərək, diaspor işlərindən başqa geniş səlahiyyətlər çərçivəsində öz vəzifələrini icra edirlər (Tittel-Mosser, 2023).

- **İcra orqanı:** İcra orqanları hökumətin icraedici qoluna birbaşa bağlı olduğundan diasporla iş sahəsində mühüm rol oynayırlar. Müxtəlif vəzifələrin həvalə olunduğu bu orqanlar diasporla iş məsələlərini ən yüksək səviyyədə idarə və həll edirlər. İcra orqanları arasında daim müşahidə olunan tendensiya onların fəaliyyət sahəsini daha da genişləndirilməsindən və çox vaxt iqtisadi inkişaf məsələlərini daha müfəssəl şəkildə əhatə etmək üçün diasporla iş sahəsindən kənara çıxmasından ibarətdir. Bu cür əhatəli yanaşma diasporla iş məsələlərini daha böyük milli inkişaf məqsədləri ilə uzlaşdırır və hərtərəfli strategiyanı təmin edir (Tittel-Mosser, 2023).

- **Nazirliyin tabeliyində olan qurum:** Diasporla iş üzrə nazirliyə tabe olan qurumları yaratmaq üçün ölkələr nazirliklərlə və ya icra orqanları ilə iyerarxik əlaqədə olan institutlar, idarələr və ya şuralar kimi müxtəlif variantları nəzərdən keçirə bilərlər. Digər növ institutlarla olduğu kimi, nazirliyə tabe olan qurumların yaradılması da onların istər yalnız diaspor

işləri ilə məşğul olmasından, istərsə də daha geniş milli inkişaf çərçivələrinə inteqrasiya edilməsindən asılı olmayaraq rolunu aydın başa düşməyi tələb edir (Tittel-Mosser, 2023).

- **Quango:** "Quango"lar, həm özəl, həm dövlət xüsusiyyətlərinə malik hibrid qurum olaraq, diasporla iş üçün unikal imkan təklif edirlər. Adətən investisiya və ya maliyyə fəaliyyətləri ilə əlaqəli olan bu qurumlar birbaşa hökumət müdaxiləsini nəzərdə tutmayan yanaşmanı təmin edə bilərlər. Bəzi "Quanqo"lar tam olaraq diaspor məsələləri ilə məşğul olsa da, digərləri, məsələn milli banklar və ya ticarət palataları daha geniş fəaliyyət sahəsinə malikdir. "Quanqo"nun yaradılması muxtariyyətin dövlət təsiri ilə balanslaşdırılmasını tələb edir və belə bir qurumun diasporla bağlı fəaliyyətlərin daha geniş çərçivədə dəstəklənməsində rolu xüsusilə vurğulanır (Tittel-Mosser, 2023).

- **İctimai faydalı birlik:** muxtariyyətə malik, lakin hökumətlə sıx bağlı olan ictimai faydalı birliklər diasporla is sahəsində qeyri-ənənəvi, lakin effektiv yanaşmanı özündə əks etdirirlər. Çox vaxt ictimai faydalı kimi tanınan bu təsisatlar sırf diaspor işi ilə məşğul ola və ya daha geniş xarakterli ümumi səlahiyyətlərə malik ola bilərlər (Tittel-Mosser, 2023).

- **Əmək məsələləri üzrə orqan:** Diasporla işin əsasən əmək miqrasiyası ilə əlaqəli olduğu regionlarda əmək məsələlərinə cavabdeh olan dövlət orqanının yaradılması önəmli varianta çevrilir. Əsasən Asiya və Sakit Okean regionunda yerləşən bu orqanlar əməkçi miqrantların təlimləndirilməsi, işə götürülməsi və müdafiəsi ilə məşğul olurlar. Bu orqanların yaradılması işsizliyin həllinə, işçilərin milli və beynəlxalq əmək bazarları ilə əlaqəsinin təmin edilməsinə və müvafiq strategiyaların spesifik əmək miqrasiyası kontekstinə uyğunlaşdırılmasına ciddi diqqət yetirməyi tələb edir (Tittel-Mosser, 2023).

- **Məşvərət orqanı:** Məşvərət orqanları xüsusi olaraq diasporla iş üzrə müxtəlif qurumların fəaliyyətini koordinasiya etmək və bu məsələlər üzrə

məsləhət vermək üçün yaradılır. Bu qurumların əksəriyyəti yalnız diaspor məsələləri ilə məşğul olur, bəziləri isə daha geniş fəaliyyət sahəsinə malik olaraq ümumilikdə iqtisadi məsələlərə və ya miqrasiyaya diqqət yetirə bilərlər (Tittel-Mosser, 2023).

- **Təmsilçilik orqanı:** Çox vaxt qanunvericilik orqanları ilə əlaqəli olan təmsilçilik institutları mənşə ölkəsində diaspor hüquqlarını təmsil etməkdə həlledici rol oynayırlar. İstər nazirliklər, istərsə də qanunverici orqanlar nəzdində fəaliyyət göstərməsindən asılı olmayaraq, adətən bu qurumlar yalnız diaspor məsələləri ilə məşğul olurlar. Onlar ümumi mandata malik olduqda, qanunvericilik funksiyalarını və diasporla iş öhdəliklərini diqqətlə balanslaşdırmaq vacibdir (Tittel-Mosser, 2023).

- **Səfirliklər və diplomatik nümayəndəliklər:** Nəhayət, səfirliklər və diplomatik nümayəndəliklər, o cümlədən konsulluqlar diasporla iş üzrə əsas vasitəçi kimi mühüm rol oynayan əlavə qurumlar kateqoriyasıdır. Uğurlu qarşılıqlı fəaliyyət modelləri inkişaf təşəbbüslərinə qoşulmazdan əvvəl diasporlara xidmət göstərməyin və onlarla əlaqə saxlamağın vacibliyini vurğulayır. Konsulluq xidmətlərindən başqa, bu missiyalar diasporla fəal əlaqələr qurur, iqtisadi inkişaf, mədəniyyət və təhsil sahələrində münasibətləri gücləndirirlər. Onların bilavasitə yerlərdə mövcudluğu diaspor ehtiyaclarını ölçməyə imkan verir ki, bu da diasporla iş üzrə milli yanaşmanı müəyyənləşdirməyə kömək edir. Eyni zamanda, səfirliklər və diplomatik nümayəndəliklər diaspor profillərinin yaradılması və məlumat toplamaq kimi fəaliyyətlərin həyata keçirilməsində və informasiyanın toplanmasında fəal tərəfdaş ola bilərlər (Tittel-Mosser, 2023; EUDiF, 2021).

**Cədvəl 3.** **Dünyada diasporla iş üzrə institusional təşkilatlara aid misallar**

<table>
<tr><th>Qurumun növü</th><th>Ölkə misalı</th><th>Təsvir</th></tr>
<tr><td>Nazirlik</td><td>Mali</td><td>Xaricdəki Malililərin İşləri və Afrika İnteqrasiyası üzrə Nazirlik<ul><li>2004-cü ildə yaradılmış bu təşkilat xaricdə yaşayan malililərin ehtiyaclarını qarşılamaq və Afrika cəmiyyətlərinə inteqrasiyasını asanlaşdırmaq məqsədi daşıyır.</li><li>Nazirliyin missiyasına xaricdə məskunlaşmış malililəri müdafiə etmək, onların maraqlarını təşviq etmək və Maliyə qayıtdıqdan sonra onlara dəstək vermək daxildir.</li><li>Nazirlik diaspor üzvləri ilə görüşmək üçün əsas təyinat ölkələrinə səfərlər təşkil edir (BMqT, 2018).</li></ul></td></tr>
<tr><td>Nazirlik nəzdində bölmə</td><td>Seneqal</td><td>Xaricdəki Seneqallılarla İş üzrə Baş İdarə<ul><li>2003-cü ildə ilk olaraq nazirlik kimi yaradılaraq daha sonra, 2012-ci ildə Xarici İşlər və Xaricdəki Seneqallılar üzrə Nazirliyə inteqrasiya edilib.</li><li>O, iki şöbədən ibarətdir:<ul><li>Xaricdəki seneqallıların müdafiəsi və dəstəklənməsinə diqqət yetirən Xaricdəki seneqallılar üçün Yardım və Təşviqat Şöbəsindən.</li><li>Xaricdəki seneqallıların iqtisadi təşviqi ilə məşğul olan İnvestisiyaların və Layihələrin Təşviqi Şöbəsindən.</li></ul></li><li>Baş İdarə xaricdə yaşayan Seneqal vətəndaşlarına əsas informasiyanın, inzibati köməyin və konsulluq xidmətlərinin təqdim olunmasında mühüm rol oynayır.</li><li>Baş İdarəyə nəzarət və cavabdehlik Xarici İşlər və Xaricdəki Seneqallılar üzrə Nazirliyin üzərinə düşür. Bu nazirlik xaricdəki Seneqal birlikləri ilə məşğul olur və Seneqaldan kənarda yaşayan ölkə vətəndaşlarının rəsmi siyasət öhdəliklərini formalaşdırır (Smith, 2020).</li></ul></td></tr>
</table>

<table>
<tr><th>Qurumun növü</th><th>Ölkə misalı</th><th>Təsvir</th></tr>
<tr><td>İcra hakimiyyəti orqanı</td><td>Konqo Demokratik Respublikası (KDR)</td><td>Konqo Demokratik Respublikasının İnvestisiyaların Təşviqi üzrə Milli Agentliyi (ANAPI)<br>• Bu, KDR-də beynəlxalq investisiyaların təşviqinə cavabdeh olan icra hakimiyyəti orqanıdır.<br>• ANAPI investorları cəlb etməyə şərait yaradır və rəqabət qabiliyyətini artırmaq üçün müxtəlif xidmətlər təklif edir.<br>• ANAPI-nin əsas vəzifələrinə biznes mühitinin yaxşılaşdırılmasını təbliğ etmək, KDR-in investisiya məkanı kimi müsbət imicini təşviq etmək və investisiyaların asanlaşdırılması xidmətlərini göstərmək məsələləri daxildir.<br>• ANAPI investisiya prosesinin sadələşdirilməsində, prosedurların şəffaflığının artırılmasında və yeni xarici investorlara köməyin göstərilməsində mühüm rol oynayır.<br>• ANAPI-nin internet saytında ölkədəki ümumi vəziyyət, investisiya bələdçiləri, populyar sektorlar və cari biznes mühiti haqqında ətraflı informasiya verilir (KDR, tarix göstərilməyib).</td></tr>
<tr><td>Nazirliyə tabe qurum</td><td>Anqola</td><td>Emiqrasiya və Xaricdə Anqola İcmalarına Dəstək İnstitutu<br>• 1992-ci ildə yaradılmış institut Xarici Əlaqələr Nazirliyinin nəzdindədir.<br>• İnstitutun vəzifələrinə aşağıdakılar daxildir:<br>  • Daimi və ya müvəqqəti qayıdan anqolalıları qəbul etmək.<br>  • Məşğulluq və investisiya imkanları barədə informasiya və məsləhətlər vermək.<br>  • Xaricdəki anqolalılara inzibati və hüquqi məsələlərdə kömək etmək.<br>  • Ölkə ilə onun diasporu arasında əlaqələri təmin etmək (BMqT, 2021).</td></tr>
</table>

| Qurumun növü | Ölkə misalı | Təsvir |
|---|---|---|
| **Quango** | Barbados | **Barbadosun İnvestisiya və İnkişaf Korporasiyası (BIDC)**<br>• 1992-ci ildə yaradılmış dövlət-özəl qurum.<br>• Mandatı:<br>  • İqtisadi diversifikasiyaya və artıma töhfə vermək.<br>  • Rəqabətli biznes müəssisələrinin inkişafına şərait yaratmaq.<br>• Vəzifələrə daxildir:<br>  • İxrac ticarətinin inkişafı ilə bağlı məsləhətlərin verilməsi, təşviqatın aparılması və dəstək tədbirlərinin görülməsi.<br>  • İnvestisiya, sənayenin inkişafı, məhsul və xidmətlərin ixracı ilə bağlı tədqiqatların aparılması və asanlaşdırılması.<br>  • Məhsul və xidmətlərin ixracında iştirak (BIDC, tarix göstərilməyib). |
| **İctimai faydalı birlik** | Benin | **Xaricdəki Beninlilərin Ali Şurası (HCBE)**<br>• 1997-ci ildə yaradılaraq, 2000-ci ildə “ictimai təyinatlı birlik” kimi tanınıb.<br>• Məqsədlər:<br>  • Xaricdəki ölkə vətəndaşlarının milli siyasi həyatda iştirakına şərait yaratmaq.<br>  • Xaricdəki ölkə vətəndaşlarının hüquq və mənafelərini qorumaq.<br>  • Benində investisiyaların təşviqi ilə məşğul olmaq.<br>• Benin və emiqrantların yaşadığı ölkələr arasında mədəni, iqtisadi və idman mübadilələrini həyata keçirir.<br>• Emiqrantların yaşadığı ölkələrdə icma məclisi, icma şurası və icma nümayəndəliyi daxil olmaqla, bölmələr şəklində təşkil olunur.<br>• Əsas struktura baş assambleya, koordinasiya komitəsi və icra aparatı daxildir (Harley, 2020). |

| Qurumun növü | Ölkə misalı | Təsvir |
|---|---|---|
| **Əmək məsələləri üzrə orqan** | Kiribati | **Milli Karyera Məsləhət və Məşğulluq Mərkəzi**<br>• Əmək Nazirliyinin Texniki-peşə Təhsili və Təlimi Şöbəsi nəzdində fəaliyyət göstərən milli universal məşğulluq mərkəzi.<br>• Mərkəz karyera məsləhət xidmətləri təqdim edir və ixtisaslı kiribatililər üçün məşğulluq imkanlarını təşviq edir.<br>• Mərkəz ölkədə və xaricdə iş yerlərinin təmin olunması üçün xüsusilə gənclərə peşə oriyentasiyasının və karyera məsləhətlərinin verilməsinə diqqət yetirir (Beynəlxalq Əmək Təşkilatı, 2018; Tittel-Mosser, 2023). |
| **Məşvərət orqanı** | Yamayka | **Diaspor Məşvərət Şurası**<br>• Yamayka diasporu ilə iş aparmaq və əməkdaşlıq etmək üçün 2004-cü ildə yaradılmış məşvərət orqanı.<br>• O, diaspor tərəfindən Yamaykanın inkişafı və iqtisadiyyatının artımına töhfə vermək üçün platforma rolunu oynayır.<br>• Məqsədlər:<br>  • Diasporla bağlı məsələlərdə hökumətə məsləhət və tövsiyələr vermək. Diaspor üzvlərinin hüquq və mənafelərini qorumaq.<br>  • Hökumətlə Yamayka diasporu arasında kommunikasiya və tərəfdaşlığa şərait yaratmaq.<br>  • Diaspor bacarıqları, resursları və təcrübəsindən Yamaykanın xeyrinə istifadə etmək.<br>  • Yamayka və onun dünyadakı diaspor icmaları arasında əlaqələri və qarşılıqlı münasibətləri gücləndirmək (Xarici İşlər və Xarici Ticarət Nazirliyi, 2018). |

| Qurumun növü | Ölkə misalı | Təsvir |
|---|---|---|
| **Təmsilçilik orqanı** | Tunis | **Xaricdəki Tunislilərin Ali Şurası**<br>• 2016-cı ildə Xaricdəki Tunislilərin İşləri üzrə İdarə yanında məşvərət orqanı kimi yaradılıb.<br>• 1990-cı ildə qəbul olunmuş hüquqi müddəalar əsasında 2011-ci ildə diasporun verdiyi təkliflərə uyğun yaradılıb.<br>• Aşağıdakı məsələlər üzrə məsləhətləşmələr üçün nəzərdə tutulub:<br>  • Xaricdəki tunislilərə aid qanun və əsasnamə layihələri.<br>  • Xaricdəki tunislilərə aid beynəlxalq konvensiya və müqavilələr (Afrika İnkişaf Fondu, 2020). |

# 4. Böhran dövründə diasporla iş

Diasporla iş münaqişə, təbii fəlakətlər, eləcə də səhiyyə ilə bağlı COVİD-19 pandemiyası kimi fövqəladə hallara dair müxtəlif ssenariləri əhatə edən böhranlar zamanı mənşə ölkələrinin tətbiq etdiyi cavab strategiyalarının mühüm aspekti qismində gündəmə gəlir. Belə çətin dövrlərdə diaspor icmaları ilə strateji əməkdaşlıq humanitar yardım, bərpa və inkişaf təşəbbüslərinə əhəmiyyətli dərəcədə töhfə vermək üçün onların çoxşaxəli resurslarından, ixtisaslaşmış təcrübəsindən və geniş şəbəkələrindən istifadəni nəzərdə tutur.

Diasporlar transmilli, xüsusən humanitar böhranlarla mübarizə aparan regionlarda fəaliyyət göstərən çoxsektorlu, çevik reaksiyaya malik qurumlar kimi xüsusi rol oynayırlar (DEMAC, 2022). Qeyd edək ki, diaspor təşkilatları fəlakətlərdən sonra öz mənşə ölkələri ilə bağlı əlaqələrdən və dərin anlayışdan istifadə edərək ilk müdaxilə tədbirlərində əsas rol sahibi olduğunu sübuta yetiriblər. Adətən, yerli icmalar və diaspor təşkilatları arasında isitfadə olunan kommunikasiya kanalları böhran zamanı məlumatlılığın artırılmasında çevikliyə şərait yaradır. Real vaxt rejimində informasiya mübadiləsi, üstəgəl maddi vəsaitlərin sürətlə səfərbər edilməsi və paylanması diaspor təşkilatlarını böhran vəziyyətlərində ilkin cavab tədbirlərinin önəmli iştirakçısına çevirir. Çətinliklə gedilə bilən regionlarda diaspor təşkilatlarının yerli əlaqələri və münasibətləri onlara həmin yerlərdə səmərəli fəaliyyət göstərmək üçün unikal üstünlük verir, çünki adi humanitar təşkilatlar orada maneələrlə qarşılaşa bilərlər (Shabaka, 2021; DEMAC, 2022).

Bundan əlavə, diaspor təşkilatlarının transmilli mövqeyi beynəlxalq iştirakın məhdud olduğu ərazilərdə distant idarəetmə və transsərhəd cavab tədbirləri ilə bağlı artan tələblərin qarşılanmasında həlledici rol oynayır. Öz ölkələrinin və yaşadıqları bölgələrin siyasət arenalarında böhrandan təsirlənmiş əhali adından

aparılan təbliğat işləri bu təşkilatların təcili yardımdan kənara çıxan vacib rola malik olduğunu vurğulayır (DEMAC, 2022).

Böhran dövrlərində diasporla işin tədqiqi bu bölmədə təqdim olunur. Bölmə, böhrandan əvvəl və böhran zamanı diasporla effektiv iş üçün əsas siyasət variantları və strategiyalarının araşdırılması ilə başlayır, sonra isə böhran dövrlərində müxtəlif ölkələrdən diasporla işə dair ən qabaqcıl təcrübə nümunələri təsvir olunur.

## 4.1 Böhrandan əvvəl

Böhran zamanı diasporla işi genişləndirmək üçün fövqəladə hallar baş verməzdən əvvəl qabaqlayıcı tədbirlər görülməlidir. Hökumətin ümumi baxışı və prioritetləri çərçivəsində diasporla işin optimallaşdırılması şəffaf hökumətlərarası mexanizmlərin yaradılmasını zəruri edən fundamental addımdır. Bu inteqrasiya dövlət siyasətində nəzərdə tutulmuş humanitar məqsədlərə uyğun olaraq, diasporun sosial, insan və maliyyə töhfələrindən istifadə üçün vahid yanaşmanı təmin edir (Shabaka, 2021). Üstəlik, böhran baş verməzdən əvvəl diaspor icmaları ilə erkən əlaqələrin gücləndirilməsi olduqca vacibdir, çünki bu, səmərəli kommunikasiya və əməkdaşlıq üçün zəmin yaradır. Böhranlara cavab vermək imkanlarını gücləndirmək üçün ölkələr tibb, mühəndislik, su, sanitariya və gigiyena (WASH), eləcə də yenidənqurma kimi sahələrdə müvafiq bacarıqlara malik diaspor ekspertlərindən ibarət milli ehtiyat qrupları yaratmalıdır (və ya mövcud ekspertlərlə əlaqələr qurmalıdır). Təbii olaraq, dəyərli əlaqələrə malik olan diaspor təşkilatları ilə koordinasiya böhran zamanı görülən tədbirlərin təsirini artırmaq və təkrarlanmasının qarşısını almaq baxımından çox vacibdir. Bu koordinasiya humanitar əməliyyatlar üçün rəsmi icazə əldə etmək məqsədilə həm təyinat, həm də mənşə ölkələrində milli hakimiyyət orqanları ilə qarşılıqlı əlaqə baxımından da əhəmiyyətlidir (Shabaka, 2021; DEMAC, 2022). Bu cür fəal iştirak digər aktorlarla daha da hamar əməkdaşlığa kömək etməklə yanaşı, xüsusən də yerli səviyyədə diaspor töhfələrinin təsirini gücləndirə biləcək tərəfdaşlıq üçün zəmin yaradır. Belə bir strateji uzaqgörənlik, xüsusən qeyri-dövlət aktorları ilə humanitar fəaliyyətlər

üçün danışıqların zəruri ola biləcəyi mürəkkəb fövqəladə hallarda və ya münaqişə zonalarında böyük əhəmiyyət kəsb edə bilər (DEMAC, 2022).

## 4.2 Böhran zamanı

Böhran zamanı diasporla effektiv iş kommunikasiyanı, koordinasiyanı, texniki mübadiləni, fövqəladə tədbirləri, könüllülüyü və təbliğatı nəzərdə tutan çoxşaxəli yanaşmaya əsaslanır. Diaspor icmaları onlayn texnologiyalardan istifadə edərək ani kommunikasiya qurmaq, əsas ehtiyaclar haqqında yeniləmələr əldə etmək və əməkdaşlıq qrupları yaratmaq üçün WhatsApp və Telegram kimi platformalardan yararlana bilərlər. Oflayn iş, o cümlədən ictimai fəaliyyət və (məsələn dini qruplar vasitəsilə) könüllülük əsas olaraq qalır. Kommunikasiyanın optimallaşdırılması məqsədilə diasporlar üçün və diasporlar tərəfindən məqsədli kanallar yaradılmalı, hökumət saytlarında müvafiq dillərdə müntəzəm yenilənmələr ikinci və sonrakı nəsillər üçün aparılmalıdır (Şabaka, 2021). Böhran zamanı birbaşa koordinasiya üçün konfranslar və görüşlər həyati vasitə rolunu oynayırlar (Romano, 2023). Texniki və bilik mübadiləsi asanlaşdırıldıqda, diaspor təşkilatları fövqəladə hallara reaksiya və bərpa səylərini gücləndirərək, xüsusilə tibb, mühəndislik, WASH və yenidənqurma sahələrində öz təcrübələrini bölüşürlər (DEMAC, 2022). Gömrük rüsumlarından müvəqqəti azad olunmaq kimi fövqəladə tədbirlər diaspor yardımını artırır, mövcud sxemlərin genişləndirilməsi isə resurs səfərbərliyini asanlaşdırır (Shabaka, 2021). Diaspor iştirakının əsasən könüllü xarakterini qəbul edərək, diasporların bilik və bacarıqlarından daha çox istifadə etmək məqsədilə könüllülüyün, o cümlədən işçi yığımının asanlaşdırılması üçün sistemlər yaradılmalıdır (Şabaka, 2021). Bundan əlavə, diaspor təşkilatları təbliğat və məlumatlılığın artırılmasında, təsirə məruz qalmış əhalinin səsini lazımi ünvana çatdırmaqda, effektiv kommunikasiyanın təşviqində və maraqlı tərəflərin humanitar müdaxilələrə görə məsuliyyət daşımasında həlledici rol oynayırlar (DEMAC, 2022).

**Cədvəl 4.** **Dünyada böhran zamanı diasporla iş üzrə misallar**

<table>
<tr><th>Böhran növü</th><th>Strategiya/ Siyasət</th><th>Ölkə misalı</th><th>Təsvir</th></tr>
<tr><td>COVİD -19</td><td>Texniki və bilik mübadiləsini asanlaşdırmaq<br>➔ Diaspor ekspertlərindən ibarət milli resursların yaradılması və ya mövcud olanlarla əlaqələrin qurulması</td><td>Sudan</td><td>Sudan-Amerika Həkimlər Assosiasiyası (SAPA)<br>• 2019-cu ildə yaradılmış SAPA, əsasən ABŞ ərazisindəki Sudan əsilli həkimlər və tibb mütəxəssisləri üçün humanitar təşkilatdır.<br>• Məqsəd: ABŞ-da, Sudanda və qlobal miqyasda üzvlər arasında əlaqə və əməkdaşlıq platformasını təqdim edərək, onların icmalarında səhiyyə siyasətinin inkişafına və keyfiyyətli tibbi xidmətlərə töhfə vermək.<br>• Sudanda SAPA-nın COVİD-19 pandemiyasına reaksiyası COVİD-19 üzrə işçi qrupun formalaşdırılması, fərdi qoruyucu vasitələrin (FQV) təchizatı və distant texnologiya vasitəsilə xəstəxanalara bilik və təcrübənin ötürülməsindən ibarət idi.<br>• Öyrənilmiş dərslər: Müqavimət hərəkatı zamanı yerli hakimiyyət orqanları ilə qurulan əlaqələrdən istifadə edərək şəxsi və təhsil şəbəkələri vasitəsilə nazirliklərlə təmaslar asanlaşdırıldı.<br>• Mövcud potensialdan istifadə etməklə texniki ehtiyacların həllində çevikliyi və vəziyyətin daim yenilənməsini tələb edən siyasi iş və peşəkar tibb işi arasında əlaqəyə xüsusi diqqət ayrıldı (Shabaka, 2021).</td></tr>
</table>

| Böhran növü | Strategiya/ Siyasət | Ölkə misalı | Təsvir |
|---|---|---|---|
| **COVİD-19** | Texniki və bilik mübadiləsini asanlaşdırmaq<br>➔ Diaspor ekspertlərindən ibarət milli resursların yaradılması və ya mövcud olanlarla əlaqələrin qurulması | Tunis | **Tanınmış Məktəblərin Məzunlarının Tunis Assosiasiyası (ATUGE)**<br>• 1990-cı ildə Fransada mühəndislər, biznes məktəbi tələbələri, həkimlər və tədqiqatçılardan ibarət Tunis diasporu üzvləri tərəfindən yaradılıb.<br>• Məqsəd: Tunis və dünya ictimaiyyəti arasında əlaqələri və əməkdaşlığı gücləndirmək.<br>• Tunisin Fransada yerləşən səfirliyindəki mövcud əlaqələrdən istifadə edərək, 2021-ci ilin iyulunda Tunisdə COVİD-19 dalğasına effektiv cavab.<br>• İanə etmək, maddi-texniki dəstək göstərmək və ilkin zərurət vasitələrini, o cümlədən FQV və oksigeni Tunisə çatdırmaq üçün ATUGE-nin tələbələr və mühəndislər şəbəkəsini cəlb etməklə səfirliklə birgə səylər (DEMAC, 2022). |
| **COVİD-19** | Kommunikasiyanı asanlaşdırma | Çin | • Pandemiya zamanı sosial şəbəkələrdə kommunikasiya üçün Çin diasporu tərəfindən *WeChat* sistemindən geniş istifadə.<br>• İlkin alovlanma zamanı İtaliyadakı Çin icması *WeChat Pay*-dən istifadə edərək Vuhan üçün ianələr təşkil etdi və göndərdi.<br>• İtaliyada Çin rəsmiləri tərəfindən fərdlərlə birbaşa kommunikasiya və Çin səfirliyinə təqdim etmək məqsədilə virusa yoluxmuş şəxslər üçün onlayn bəyannamə formalarının paylanması üçün çoxsaylı *WeChat* qruplarının yaradılması. |

| Böhran növü | Strategiya/ Siyasət | Ölkə misalı | Təsvir |
|---|---|---|---|
| | | | • İtaliyadakı Çin səfirliyi və konsulluqlarının səfərbər etdiyi Çin assosiasiyaları tərəfindən çinlilərin sıx yaşadığı ərazilərdə təşkil edilmiş patrul çəkmə kimi tədbirlərin koordinasiyası və kommunikasiyası üçün *WeChat* qruplarından səmərəli istifadə.<br>• Tənqidi məqamlar: hökumət tərəfindən emiqrantların gündəlik həyatına həddsiz müdaxilə (Ceccagno e Thunø, 2023). |
| **COVİD-19** | Kommunikasiyanı asanlaşdırma | Kipr | • COVİD-19-a yoluxma və ölüm hallarının az olmasına baxmayaraq, pandemiya zamanı Kipr hökuməti tərəfindən xaricdəki kiprlilərə dəstək üçün tədbirlərin həyata keçirilməsi.<br>• Xarici İşlər Nazirliyi tərəfindən əsas informasiyanın, o cümlədən Kipr diplomatik nümayəndəliklərinin və fövqəladə hallar üçün əlaqə məlumatlarının təqdim edilməsi.<br>• Qeyri-rezidentlərin müraciətlərini işləmək və repatriasiya ilə bağlı informasiyanı paylamaq üçün onlayn platformanın yaradılması.<br>• Tənqidi məqamlar: Yunanıstanda və Böyük Britaniyada spesifik icmalara və həssas qruplara diqqət yetirməklə diasporla selektiv əlaqə, Aİ hüdudlarından kənarda olan kiprlilər üçün isə məhdud təşəbbüslərin həyata keçirilməsi (Konstantinidou və Vintila, 2020). |

| Böhran növü | Strategiya/ Siyasət | Ölkə misalı | Təsvir |
|---|---|---|---|
| **Münaqişə** | Böhran zamanı birbaşa koordinasiya üçün imkanlar yaratmaq | Ukrayna | • 2022-ci ilin mart və noyabr ayları arasında 52 Ukrayna diaspor təşkilatının iştirakı ilə 6 milli konfransın və dörd mərhələdən ibarət yerli konfransın təşkili.<br>• Ukraynanın diaspor təşkilatları arasında daxili koordinasiya ehtiyaclarına və humanitar əməkdaşlığa cavab olaraq, konfranslar İtaliyada böhranla məşğul olan institusional aktorlarla dialoqu asanlaşdırmaq məqsədi daşıyır.<br>• Konfranslar diaspor təşkilatlarının koordinasiya sistemlərindəki boşluqlarının aradan qaldırılmasına və institusional tərəfdaşlara birbaşa çıxış imkanlarının genişləndirilməsinə yönəldilib.<br>• İtaliyaya gələn ukraynalı qaçqınlara yardımın əməliyyat aspektlərinə, BMqT-nin asanlaşdırma funksiyaları vasitəsilə informasiya mübadiləsi, qarşılıqlı dəstək, eləcə də milli və yerli institusional aktorlarla əlaqə üçün platformanın təqdim edilməsinə xüsusi diqqət yetirilir (Romano, 2023). |

| Böhran növü | Strategiya/ Siyasət | Ölkə misalı | Təsvir |
|---|---|---|---|
| **Münaqişə** | Təbliğat | Əfqanıstan | • "Omid International" Təşkilatı<br>• 2021-ci ildə Böyük Britaniyadakı əfqan diasporu tərəfindən yaradılıb.<br>• Məqsəd: müharibə və münaqişələrdən qaçanlar üçün dayanıqlı gələcək yaratmaq.<br>• Əfqanıstandakı humanitar vəziyyət haqqında məlumatlılığı artıran və dayanıqlı həll yollarını müdafiə edən, xüsusilə qızların və gənc qadınların üzləşdiyi zorakılığa diqqət yetirən güclü təbliğat kampaniyaları təşkilatın fəaliyyətini müşayiət edir.<br>• Təşkilat müxtəlif vasitələrdən, o cümlədən bəyanatlardan, siyasətçilərlə birbaşa kommunkasiyadan, diasporun təbliği üçün konfranslardan, Facebook, Twitter, Instagram, YouTube kimi sosial media platformalarından və digər internet saytlarından fəal şəkildə istifadə edir.<br>• Öyrənilmiş dərslər: Əsas dərslər təbliğat kampaniyalarında aydın mesajın və hədəf auditoriyanın vacibliyindən, zərərçəkmiş şəxslərlə bağlı tövsiyələrin icra edilməsindən, qaçqınların və diasporun dayanıqlı yanaşmaya cəlb edilməsindən, eləcə də maarifləndirmə və təbliğat üçün şəbəkələr qurmaq və imkanları müəyyən etmək məqsədilə humanitar aktorlarla əməkdaşlıq sayəsində hərtərəfli təbliğat səylərinin təşviqindən ibarətdir (DEMAC, 2022). |

| Böhran növü | Strategiya/ Siyasət | Ölkə misalı | Təsvir |
|---|---|---|---|
| **Təbii fəlakət** | Təbliğat<br>Koordinasiya<br>Bacarıq və Təcrübədən istifadə | Hindistan | • 2018 və 2019-cu illərdə Hindistanın Kerala ştatında misli görünməmiş intensiv yağışlar ciddi dağıntılara və 1,4 milyon insanın didərgin düşməsinə səbəb olub. Böyük iqtisadi itkilər qeydə alınıb, infrastruktura və torpağa ciddi ziyan dəyib.<br>• Dünya üzrə Kerala diasporası dərhal yardım göstərmək üçün fikir ayrılıqlarını kənara qoyaraq kollektiv şəkildə cavab tədbirləri görüb.<br>• Əvvəlki əlaqə və şəbəkələrdən istifadə: diaspor beynəlxalq miqrasiya əlaqələri olan bölgələrə diqqət yetirərək yardım çatdırmaq üçün mövcud sosial və mədəni kanallardan istifadə edib.<br>• Təbliğat və lobbiçilik, bacarıq və təcrübədən istifadə, diaspor koordinasiya şəbəkələri: diaspor təbliğat və lobbiçilik fəaliyyətində iştirak edib, müxtəlif bacarıq və təcrübədən istifadə edib və böhran zamanı səmərəli səfərbərlik üçün koordinasiya şəbəkələri yaradıb (Taylor və digərləri, 2023). |

# 5. Nəticələr

Bu hesabat diasporla iş üzrə ən qabaqcıl təcrübələrin hərtərəfli icmalını təqdim etməklə Azərbaycan diasporunun tam potensialından istifadə məqsədilə dəyərli informasiya təklif edir. Hesabatda qeyd olunduğu kimi, diasporların çoxşaxəli təbiəti mədəni əlaqələrdən başlayaraq milli dövlətə ümumi bağlılıq məsələlərinə qədər müxtəlif şərhləri nəzərə alan təfərrüatlı və adaptasiya olunan siyasətlərin zəruriliyini ön plana çəkir. Hesabatda diasporun töhfələrinin Azərbaycanın inkişafına əhəmiyyətli təsir göstərə biləcəyi əsas sahələr də vurğulanır.

Diasporun iqtisadi potensialının tanınması və istifadəsi dayanıqlı sosial-iqtisadi inkişaf üçün vacibdir. Liberal pul köçürmə rejimlərini təşviq edən, pul köçürmə infrastrukturunu gücləndirən, birbaşa diaspor investisiyalarını stimullaşdıran və kapital bazarlarındakı imkanları araşdıran ixtisaslaşmış siyasət Azərbaycanın iqtisadi artımına töhfə verə bilər.

Hesabat sosial fəaliyyət sahəsində diaspor icmalarının öz təcrübə və resurslarını bölüşməkdə fəal iştirakını stimullaşdırmaq və asanlaşdırmaq üçün effektiv siyasətləri təqdim edir. Bilik və bacarıqların ötürülməsi, xeyriyyəçilik və innovativ virtual qayıdış konsepsiyası “beyin axını” prosesinə qarşı mübarizədə mühüm elementlərdir. Stimul zərflərində tarazlığı təmin edən və xeyriyyəçilik fəaliyyətini dəstəkləyən siyasətlər Azərbaycanın sosial-mədəni inkişafına əhəmiyyətli töhfə verə bilər.

Eyni zamanda, hesabat diaspor institutlarının əhatəli təsnifatını təqdim edərək diasporla iş üzrə institusional təşkilatların önəmli aspektlərini təqdim edir. Diaspor institutları müxtəlifliyin tanınması və diasporla iş sahəsində çoxşaxəli yanaşmanın mənimsənilməsi Azərbaycan diasporu ilə əlaqələri gücləndirmək üçün əsas strategiya kimi müəyyən edilir.

Nəhayət, hesabat böhran dövrlərində diaspor təşkilatlarının ilk müdaxilə edən tərəf kimi əsas rolunu vurğulayaraq diasporla işə aid məsələləri araşdırır. Böhrandan əvvəl görülən proaktiv tədbirlər, o cümlədən diasporla iş prosesinin optimallaşdırılması və əlaqələrin erkən mərhələdə gücləndirilməsi çətin dövrlərdə effektiv iş üçün böyük əhəmiyyət kəsb edir. Böhranlar zamanı tələb olunan kommunikasiya, koordinasiya, texnoloji mübadilə, fövqəladə tədbirlər, könüllülük və təbliğatdan ibarət çoxşaxəli yanaşma hesabatda xüsusilə vurğulanır.

Azərbaycan bu hesabatda təqdim olunmuş ən qabaqcıl təcrübələri tətbiq edərək diasporunun dayanıqlı inkişaf üçün tam potensialını açmaq imkanına malikdir. Diaspor icmalarının unikal güclü tərəflərini tanımaqla, ilkin əlaqələri inkişaf etdirməklə və proaktiv tədbirlər həyata keçirməklə Azərbaycan mürəkkəb problemlərə dayanıqlı cavab tədbirləri hazırlaya bilər və bunun nəticəsi kimi öz diasporu ilə əməkdaşlığı və təsirli əlaqələri gücləndirə bilər.

# Ədəbiyyat


Africa Foundation for Development (AFFORD) (2020) *Diaspora Engagement Mapping - TUNISIA*. EUDiF. **/ Diasporla iş prosesinin hazırlanması - TUNİS**. Burada mövcuddur: https://diasporafordevelopment.eu/wp-content/uploads/2020/04/CF_Tunisia-v.2.pdf (2023-cü il noyabrın 27-də baxılıb).

African Union (2005). *Report of the meeting of experts from member states on the definition of the African diaspora*. Council of Ministers & Executive Council Collection. **/ Üzv dövlətlərin Afrika diasporunun tərifinə dair ekspertlər iclasının hesabatı**. Burada mövcuddur: https://archives.au.int/handle/123456789/4391?locale-attribute=en (2023-cü il noyabrın 8-də baxılıb).

Agunias, D. & K. Newland (2012) *Developing a Road Map for Engaging Diasporas in Development: A Handbook for Policymakers and Practitioners in Home and Host Countries*. **/ Diasporları inkişafa cəlb etmək üçün yol xəritəsinin hazırlanması: mənşə və təyinat ölkələrində siyasət hazırlayan** şəxslər və praktiklər üçün təlimat. International Organization for Migration, Geneva.

American India Foundation (n.d) *American India Foundation Official Website*. **/ Amerika-Hindistan Fondunun rəsmi saytı.** Burada mövcuddur: https://aif.org/home/ (2023-cü il noyabrın 15-də baxılıb).

Ancien, D., Boyle, M. & Kitchin, R. (2009) *The Scottish Diaspora and Diaspora Strategy: Insights and Lessons from Ireland*. Scottish Government. **/ Şotlandiya diasporu və diaspor strategiyası: İrlandiyadan anlayışlar və təcrübələr.** Burada mövcuddur: https://www.gov.scot/publications/scottish-diaspora-diaspora-strategy-insights-lessons-ireland/documents/ (2023-cü il noyabrın 27-də baxılıb).

Aycinena, D., Martinez, C., & Yang, D. (2010). The impact of remittance fees on remittance flows: Evidence from a field experiment among Salvadoran migrants. **/ Köçürmə haqlarının pul köçürmə axınlarına təsiri: salvadorlu miqrantlar arasında praktiki eksperiment faktları.** *Report, University of Michigan. [1672]*.

Azerbaijan Official Website (n.d.) *General Information. Azerbaijan Diaspora*. / Ümumi məlumat. Azərbaycan diasporu. Burada mövcuddur: https://azerbaijan.az/en/related-information/205 (2023-cü il noyabrın 8-də baxılıb).

Barbados Investment and Development Corporation (BIDC) (n.d.) *About Us*. / **Bizim haqqımızda.** Burada mövcuddur: https://exportbarbados.org/about-export-barbados-bidc-2 (2023-cü il noyabrın 27-də baxılıb).

Bilgili, Ö., & Siegel, M. (2015). To return permanently or to return temporarily? Explaining migrants' intentions. / **Daimi, yoxsa müvəqqəti qayıtmaq? Miqrantların niyyətlərinin izahı.** In *Migration and Development*, Vol. 6, Issue 1, pp. 14–32. SAGE Publications.

Brinkerhoff, J. M. (2012). Creating an Enabling Environment for Diasporas' Participation in Homeland Development. **/ Vətənin inkişafında diasporların iştirakı üçün əlverişli mühitin yaradılması.** In *International Migration*, Vol. 50, Issue 1, pp. 75–95. Wiley.

Brinkerhoff, J. M. (2013). Diaspora Philanthropy. **/ Diaspor xeyriyyəçiliyi.** In *Nonprofit and Voluntary Sector Quarterly*, Vol. 43, Issue 6, pp. 969–992. SAGE Publications.

Business Scotland (n.d.) *GlobalScot – 20 years of promoting Scotland internationally*. **/ GlobalScot – Şotlandiyanı beynəlxalq səviyyədə tanıtmağın 20 ili.** Burada mövcuddur: https://www.businessscotlandmagazine.com/globalscot-20-years-of-promoting-scotland-internationally (2023-cü il noyabrın 15-də baxılıb).

Caraman, O.S., & Stancu, S. (2012). Foreign Direct Investments, Technology Transfer and Economic Growth. **/ Birbaşa xarici investisiyalar, texnologiyanın ötürülməsi və iqtisadi artım.** A Panel Approach. Romanian Journal of Economic Forecasting, 85-102.

Carling, J. (2004). *Policy options for increasing the benefits of remittances*. / **Pul köçürmələrinin faydasını artırmaq üçün siyasət variantları.** Centre on Migration, Policy & Society.

Ceccagno, A., & Thunø, M. (2023) *Digitized diaspora governance during the COVID-19 pandemic: China's diaspora mobilization and Chinese migrant responses in Italy*. **/ COVİD-19 pandemiyası zamanı rəqəmsal diaspor idarəçiliyi: Çin diasporunun səfərbərliyi və İtaliyada çinli miqrantların reaksiyası.** Global Networks, 23(1), 90–105. Burada mövcuddur: https://doi.org/10.1111/glob.12389 (2023-cü il noyabrın 15-də baxılıb).

Chuc, A. T., Li, W., Phi, N. T. M., Le, Q. T., Yoshino, N., & Taghizadeh-Hesary, F. (2022). The necessity of financial inclusion for enhancing the economic impacts of remittances. **/ Pul köçürmələrinin iqtisadi təsirini artırmaq üçün maliyyə inklüzivliyinin zəruriliyi.** *Borsa Istanbul Review*, *22*(1), 47-56.

CitizenPath (n.d.) *Mexican Matrícula Consular*. **/ Meksikanın konsulluq vəsiqəsi.** Burada mövcuddur: https://citizenpath.com/faq/mexican-matricula-consular-card/ (2023-cü il noyabrın 14-də baxılıb).

Citizens Information Board (n.d.). *Housing supports for returning Irish emigrants*. / **Geri qayıdan irlandiyalı emiqrantlar üçün mənzil dəstəyi**. Burada mövcuddur: https://www.citizensinformation.ie/en/returning-to-ireland/finding-somewhere-to-live/guide-to-housing-supports-for-returning-irish-emigrants/ (2023-cü il noyabrın 15-də baxılıb).

Cohen, R. & Kennedy, P. (2013) *Global Sociology, Third Edition*. **/ Qlobal sosiologiya,** üçüncü nəşr. NYU Press.

Colombia Nos Une (n.d.) *MI CASA CON REMESAS*. **/ MƏNİM PULKÖÇÜRÜMLƏRİM VƏ** EVİM. Burada mövcuddur: https://www.redescolombia.org/MI_CASA_CON_REMESAS/ (2023-cü il noyabrın 14-də baxılıb).

Connecting Diaspora for Development (CD4D) (n.d.) *Connecting Diaspora for Development Official Website*. **/ "Diasporu inkişaf üçün birləşdirmə" Proqramının** *rəsmi saytı.* Burada mövcuddur: https://connectingdiaspora.org/ (2023-cü il noyabrın 15-də baxılıb).

Democratic Republic of the Congo (n.d.) *Ministry of Planning. National Investment Promotion Agency*. **/ Planlaşdırma Nazirliyi. Milli İnvestisiyaların Təşviqi Agentliyi.** Burada mövcuddur: https://www.investindrc.cd/en/?lang=en (2023-cü il noyabrın 27-də baxılıb).

Diaspora Emergency Action & Coordination (DEMAC) (2022). *Diaspora Humanitarian Response & Engagement Good Practices*. / **Diasporun humanitar cavab tədbirləri və iştirakı üzrə qabaqcıl təcrübələr.** USAID & Danish Refugee Council. Burada mövcuddur: https://reliefweb.int/report/world/diaspora-humanitarian-response-engagement-good-practices (2023-cü il noyabrın 20-də baxılıb).

Dutia, S. G. (2012). Diaspora Networks: A New Impetus to Drive Entrepreneurship. / **Diaspor şəbəkələri: sahibkarlığın inkişafı üçün yeni təkan.** In *Innovations: Technology, Governance, Globalization*, Vol. 7, Issue 1, pp. 65–72. MIT Press - Journals.

Ethiopian Investment Commission (n.d.) *Ethiopian Investment Commission*. **/ Efiopiya İnvestisiya Komissiyası.** Burada mövcuddur: https://eic.waliatechnologies.net/ (2023-cü il noyabrın 14-də baxılıb).

EUDif (2021) *What is the role of homeland governments in diaspora engagement?* **/ Mənşə ölkələri hökumətlərinin diasporla iş üzrə rolu nədir?** Burada mövcuddur: https://diasporafordevelopment.eu/what-is-

the-role-of-homeland-governments-in-diaspora-engagement/ (2023-cü il noyabrın 27-də baxılıb).

Fang, T. & Wells, A. (2022) *Diaspora Economics*. **/ Diaspor iqtisadiyyatı.** IZA Discussion Paper No. 15334. Burada mövcuddur: http://dx.doi.org/10.2139/ssrn.4123775 (2023-cü il noyabrın 9-da baxılıb).

Fernandes, D. (2022) *Diaspora and Transnational Communities' Economic Contributions*. / **Diasporun və transmilli icmaların iqtisadi töhfələri.** In Routledge International Handbook of Diaspora Diplomacy. Routledge.

Franc, S., Perić Kasel, M., & Škreblin Kirbiš, I. (2020). Policies for promoting diaspora investment in countries of origin. **/ Mənşə ölkələrində diaspor sərmayələrini təşviq etmək üçün siyasətlər.** In Obrazovanje za poduzetništvo - E4E (Vol. 10, Issue 1, pp. 104–116). Europska poslovna skola Zagreb / European Business School Zagreb. https://doi.org/10.38190/ope.10.1.5

Gamlen, A., Cummings, M. E., & Vaaler, P. M. (2019) *Explaining the rise of diaspora institutions*. **/ Diaspor institutlarının yüksəlişinin izahı.** In The Microfoundations of Diaspora Politics (pp. 20-44). Routledge.

Gayle, N., Navarro, D., Murekezi, P., & Barchue, A. (2013). *Leveraging and tapping the Diaspora and remittances for development*. **/ Diaspordan və pul köçürmələrindən inkişaf üçün istifadə.** In Conference of International Fund for Agricultural Development (IFAD). Burada mövcuddur: https://www.luc.edu/media/lucedu/prolaw/documents/REMITTANCES%20FINAL%20VERSION%20(1).pdf (2023-cü il noyabrın 27-də baxılıb).

Gevorkyan A. V. (2022) *Diaspora and Economic Development: A Systemic View*. / **Diaspor və iqtisadi inkişaf: sistemli baxış.** The European journal of development research, 34(3), 1522–1541.

GlobalScot (n.d.) *GlobalScot Official Website*. **/ "GlobalScot" Şəbəkəsinin rəsmi saytı.** Burada mövcuddur: https://www.globalscot.com/become-a-global-scot (2023-cü il noyabrın 15-də baxılıb).

Globerman, S., & Chen, V.Z. (2010). Best Policy Practices for Promoting Inward and Outward Foreign Direct Investment. **/ Daxil olan və göndərilən birbaşa xarici investisiyaların təşviqi üçün ən yaxşı siyasət təcrübələri.** *ERN: Positive Analysis of Policy-Making & Implementation (Topic)*.

Gobierno de México (2017). *Programa 3x1 para Migrantes*. **/ Miqrantlar üçün "3x1" Proqramı.** Burada mövcuddur: https://www.gob.mx/bienestar/acciones-y-programas/programa-3x1-para-migrantes (2023-cü il noyabrın 14-də baxılıb).

Hagen-Zanker, J. (2014). *Potential Products and Policies to Leverage Productive Use of Migration and Remittance.* **/ Miqrasiyanın və pul köçürmələrinin məhsuldar istifadəsindən faydalanmaq üçün potensial məhsullar və siyasətlər.** *Economic and Private Sector, Professional Evidence and Applied Knowledge Service*. EPS-PEAKS. Burada mövcuddur: https://assets.publishing.service.gov.uk/media/57a08999e5274a31e0000188/Products_and_policies_to_ leverage_use_of_migration_and_remittances_58.pdf (2023-cü il noyabrın 29-da baxılıb).

Harley, L. (2020). *Diaspora engagement mapping - BENIN*. EUDiF / **Diasporla iş prosesinin hazırlanması- BENİN.** Burada mövcuddur: https://diasporafordevelopment.eu/wp-content/uploads/2020/09/CF_Benin-v.2.pdf (2023-cü il noyabrın 27-də baxılıb).

Hiller, H. H., & Franz, T. M. (2004). New ties, old ties and lost ties: the use of the internet in diaspora. **/ Yeni, köhnə və itirilmiş əlaqələr: diasporda internetdən istifadə.** In *New Media & Society*, Vol. 6, Issue 6, pp. 731–752. SAGE Publications.

International Labor Organization (ILO) (2018) *Kiribati: Employment services starts with 18 skilled workers securing jobs in Australia*. / **Kiribati: məşğulluq** xidmətləri Avstraliyada iş tapan 18 ixtisaslı işçi ilə başlayır. Burada mövcuddur: https://apskills.ilo.org/news/kiribati-employment-services-starts-with-18-skilled-workers-securing-jobs-in-australia (2023-cü il noyabrın 27-də baxılıb).

International Organization for Migration (IOM) (2018) *Migration governance profile*: *Republic of Mali*. / **Miqrasiya idarəçiliyinin profili: Mali Respublikası.** Burada mövcuddur: https://www.migrationdataportal.org/sites/g/files/tmzbdl251/files/2019-07/Migration%20governance%20profile-%20Republic%20of%20Mali.pdf (2023-cü il noyabrın 27-də baxılıb).

International Organization for Migration (IOM) (2021). *Connect Albania, an Ambitious Program for the Engagement of Albanian Diaspora on the Economic Development of Albania*. / **"Connect Albania", Alban diasporunu ölkənin iqtisadi inkişafına cəlb etmək** üçün **iddialı proqram.** Burada mövcuddur: https://albania.iom.int/news/connect-albania-ambitious-program-engagement-albanian-diaspora-economic-development-albania (2023-cü il noyabrın 14-də baxılıb).

International Organization for Migration (IOM), (2021) *Migration Governance Indicators Profile 2021 – Republic of Angola*. / **Miqrasiya idarəçiliyi göstəricilərinin profili 2021 – Anqola Respublikası.** IOM. Geneva. Burada mövcuddur: https://publications.iom.int/books/migration-governance-indicators-profile-2021-republic-angola (2023-cü il noyabrın 27-də baxılıb).

Ionescu, D. (2006). Engaging Diasporas as Development Partners for Home and Destination Countries. / **Diasporları mənşə və təyinat ölkələrinin inkişafı** üçün tərəfdaşlar kimi cəlbetmə. In IOM Migration Research Series. UN.

Kashyap, P. & Kakar, S. (2003). *American India Foundation – Tapping into US wealth for India's development*. / **Amerika-Hindistan Fondu – ABŞ sərvətlərindən**

**Hindistanın inkişafı üçün istifadə.** Burada mövcuddur: https://www.alliancemagazine.org/feature/american-india-foundation-tapping-into-us-wealth-for-india-s-development/ (2023-cü il noyabrın 15-də baxılıb).

Kenya Diaspora Homecoming Convention (KDHC) (n.d.) *Kenya Diaspora Homecoming Convention*. **/ Keniya Diasporunun Vətənə Qayıdış Qurultayı.** Burada mövcuddur: https://kdhc.co.ke/ (2023-cü il noyabrın 14-də baxılıb).

Ketkar, S. L., & Ratha, D. (2007). Development Finance Via Diaspora Bonds Track Record And Potential. **/ İnkişafın diaspor istiqrazları vasitəsilə maliyyələşdirilməsi işinin qeydləri və potensialının izlənməsi.** In Policy Research Working Papers. The World Bank.

Ketkar, S. L., & Ratha, D. (2010) *Diaspora bonds: Tapping the diaspora during difficult times*. **/ Diaspor istiqrazları: çətin vaxtlarda diasporun dəstəklənməsi.** Journal of International Commerce, Economics and Policy, 1(02), 251-263.

Konstantinidou, A., & Vintila, C.-D. (2020) *Policy Measures for the Diaspora during the COVID-19 Crisis: The Case of Cyprus*. / **COVID-19 böhranı zamanı diaspor üçün siyasət tədbirləri: Kipr nümunəsi.** HAPSc Policy Briefs Series, 1(1). Burada mövcuddur: https://orbi.uliege.be/handle/2268/251355 (2023-cü il noyabrın 21-də baxılıb).

Leblang, D. (2010). Familiarity Breeds Investment: Diaspora Networks and International Investment. **/ Tanışlıq investisiyaya yol açır: diaspor şəbəkələri və beynəlxalq investisiya.** In American Political Science Review (Vol. 104, Issue 3, pp. 584–600). Cambridge University Press (CUP).

Maamary, N. G. (2018). *The Virtual Diaspora: The Case of The Lebanese Diaspora After the Civil War*. **/ Virtual diaspor: vətəndaş müharibəsindən sonra Livan diasporu məsələsi.** Burada mövcuddur: https://laur.lau.edu.lb:8443/xmlui/bitstream/handle/10725/10490/Nicole_Georges_

Maamary_Thesis_Redacted.pdf?sequence=1&isAllowed=y (2023-cü il noyabrın 14-də baxılıb).

Marienstras, R. (1989) *On the Notion of Diaspora*. **/ Diaspor anlayışı haqqında.** In G. Challiand (Ed.), Minority Peoples in the Age of Nation-States, London, Pluto Press.

Migration Data Portal (2019) *Diasporas section*. **/ Diaspor bölməsi.** Burada mövcuddur: https://migrationdataportal.org/themes/diasporas (2023-cü il noyabrın 24-də baxılıb).

Ministry of Foreign Affairs & Foreign Trade (2018) *Terms of Reference for the Diaspora Advisory Board*. **/ Diaspor Məşvərət Şurası üçün Texniki Tapşırıqlar.** Burada mövcuddur: https://jhcuk.org/assets/files/terms-of-reference-dab-16-1-2018.pdf (2023-cü il noyabrın 27-də baxılıb).

Nurgaliyev, B. M., Lakbayev, K. S., Boretsky, A. V., & Kussainova, A. K. (2015). The informal funds transfer system “hawala” as a segment of the shadow economy: Social impact assessment and framework for combating. **/ Kölgə iqtisadiyyatının bir seqmenti kimi “havala”, qeyri-rəsmi pul köçürmə sistemi: sosial təsirin qiymətləndirilməsi və mübarizə üçün çərçivə.** *American Journal of Applied Sciences*, *12*(12), 931-937.

Nurse, K. (2019) *Migration, diasporas, remittances and the sustainable development goals in least developed countries*. **/ Az inkişaf etmiş ölkələrdə miqrasiya, diasporlar, pul köçürmələri və davamlı inkişaf məqsədləri.** Journal of Globalization and Development, 9(2), 20190006.

O’Dowd, R. (2018). From telecollaboration to virtual exchange: state-of-the-art and the role of UNICollaboration in moving forward. **/ Tele-**əməkdaşlıqdan virtual mübadiləyə: ən müasir texnologiyalar və **“UNICollaboration” Təşkilatının irəliləyişdəki rolu.** In *Journal of virtual exchange*, Vol. 1, pp. 1–23). University of Groningen Press.

Pagibig Financing (n.d.) *The Pag-IBIG Overseas Program*. **/ “Pag-IBIG” Əcnəbi Proqramı.** Burada mövcuddur: https://www.pagibigfinancing.com/articles/2010/the-pag-ibig-overseas-program/ (2023-cü il noyabrın 14-də baxılıb).

Poliakova, E., Riddle, L., & Cummings, M. E. (2019). Diaspora investment promotion via public–private partnerships: Case-study insights and IB research implications from the Succeed in Ireland initiative. **/ Dövlət-özəl tərəfdaşlığı vasitəsilə diaspor investisiyalarının təşviqi: İrlandiyada uğur təşəbbüsü çərçivəsində tematik araşdırmanın qənaətləri** və **beynəlxalq bakalavriat** tədqiqatının nəticələri. *Journal of International Business Policy*, Vol. 3, Issue 1, pp. 23–37. Springer Science and Business Media LLC.

Rodríguez-Montemayor, E. (2012). Diaspora Direct Investment Policy: Options for Development. **/ Birbaşa diaspor investisiya siyasəti: inkişaf üçün variantlar.** *Inter-American Development Bank*. Integration and Trade Sector. POLICY BRIEF No. IDB-PB-183.

Romano, R. (2023) *A Model for Diaspora Engagement in Humanitarian Contexts at Country Level: Engagement of the Ukrainian diaspora organizations - Italian Case Study*. **/ Ölkə səviyyəsində humanitar kontekstlərdə diasporla iş modeli: Ukrayna diaspor təşkilatları ilə iş – İtaliya misalı.** International Organization for Migration (IOM), Rome. Burada mövcuddur: https://publications.iom.int/books/model-diaspora-engagement-humanitarian-contexts-country-level-engagement-ukrainian-italian (2023-cü il noyabrın 21-də baxılıb).

Sander, C., & Maimbo, S. M. (2003). Migrant labor remittances in Africa: Reducing obstacles to developmental contributions. **/ Afrikada əməkçi miqrantların pul köçürmələri: inkişaf töhfələrinə maneələrin azaldılması.**

Shabaka (2021) *Diaspora Engagement in Times of Crisis*. **/ Böhran zamanlarında diasporla iş.** EUDiF case study, Brussels: ICMPD. Burada mövcuddur:

https://diasporafordevelopment.eu/library/report-diaspora-engagement-in-times-of-crisis/ (2023-cü il noyabrın 21-də baxılıb).

Sheffer, G. (2003) *Diaspora Politics: At Home Abroad*. **/ Diaspor siyasəti: vətəndə, xaricdə.** Cambridge: Cambridge University Press. doi:10.1017/CBO9780511499432.

Siegel, M., & Luecke, M. (2013). Migrant transnationalism and the choice of transfer channels for remittances: the case of Moldova. **/ Miqrant transmilliliyi və pul baratlarının köçür**ülm**əsi** üçün **kanal seçimi: Moldova misalı.** *Global Networks*, *13*(1), 120-141.

Sirkeci, I., & Zeren, F. (2018). Diaspora Marketing Revisited: The nexus of entrepreneurs and consumers. **/ Sahibkarlarla istehlakçıların əlaqəsi.** In *Transnational Marketing Journal*, Vol. 6, Issue 2, pp. 139–157. Oxbridge Publishing House.

Siwale, J. (2018). Mapping of Diaspora Direct Investment: Critical Areas of Investment. **/ Birbaşa diaspor investisiyalarının xəritələnməsi: kritik investisiya sahələri.** In African Diaspora Direct Investment (pp. 63–85). Springer International Publishing.

Smith, E. (2020) *Diaspora Policies, Consular Services and Social Protection for Senegalese Citizens Abroad*. **/ Diaspor siyasətləri, konsulluq xidmətləri və xaricdəki Seneqal vətəndaşlarının sosial müdafiəsi.** In: Lafleur, JM., Vintila, D. (eds) Migration and Social Protection in Europe and Beyond (Volume 3). IMISCOE Research Series. Springer, Cham. Burada mövcuddur: https://doi-org.mu.idm.oclc.org/10.1007/978-3-030-51237-8_17 (2023-cü il noyabrın 27-də baxılıb).

State Committee on Work with Diaspora of the Republic of Azerbaijan Official Website (n.d.) *About the Committee*. **/ Komitə haqqında.** Burada mövcuddur: https://diaspor.gov.az/en (2023-cü il noyabrın 9-da baxılıb).

Taylor, S., Booth, D., & Irudayarajan, R. (2023) *Diasporic engagement and the climate crisis in Kerala: Inclusive disaster relief and reconstruction?* **/ Keralada diasporla iş və iqlim böhranı: fəlakət zamanı inklüziv yardım və yenidənqurma?** South Asian Diaspora, 15(2), 217–231. https://doi.org/10.1080/19438192.2023.2240172

Tittel-Mosser, F. (2023) *A Typology of Diaspora Engagement Institutions*. **/ Diasporla iş üzrə təşkilatların tipologiyası.** EUDiF, Brussels: ICMPD. Burada mövcuddur: https://diasporafordevelopment.eu/library/typology-of-institutions/ (2023-cü il noyabrın 24-də baxılıb).

Van Hear, N. & Cohen, R. (2017) *Diasporas and conflict: distance, contiguity and spheres of engagement*. **/ Diasporlar və münaqişə: məsafə, yaxınlıq və iş sahələri.** Oxford Development Studies, 45:2, pp. 171-184, DOI: 10.1080/13600818.2016.1160043.

Virak, K., & Bilan, Y. (2022). The role of formal and informal remittances as the determinants of formal and informal finan-cial services. **/ Rəsmi və qeyri-rəsmi pul köçürmələrinin formal və qeyri-formal maliyyə xidmətlərinin müəyyənedici amilləri qismində rolu.** *Equilibrium. Quarterly Journal of Economics and Economic Policy*, *17*(3), 727-746.

Williams, N. (2018) *Mobilising diaspora to promote homeland investment: The progress of policy in post-conflict economies*. **/ Ölkədə** investisiyaların təşviqi üçün diasporun səfərbər olunması: post-münaqişə iqtisadiyyatlarında siyasət**in** tərəqqisi. Environment and Planning C: Politics and Space, 36 (7). pp. 1256-1279.

World Bank (2001) *Migrants' Capital for Small-Scale Infrastructure and Small Enterprise Development in Mexico*. **/ Meksikada kiçik infrastrukturun və kiçik müəssisələrin inkişafı üçün miqrant kapitalı.** World Bank, Washington, DC.